

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Yeni Azərbaycan Partiyası: 31 il əvvəl necə yarandı



8

№ 204 (6887)

# SƏS

5 noyabr 2023-cü il.
Qiymәti 60 qәpik

## "Azərbaycan Cənubi Qafqaz ölkələri arasında regional əməkdaşlığı dəstəkləyir"



2

## Prezident İlham Əliyev Almaniyanın xarici işlər nazirini qəbul edib

# Türk dünyasının birliyini möhkəmləndirən ALTERNATİV GÜC








4



## 1 əsrin səs xəzinəsi: Şərqin ilk radiosu - 97 illik tarix və bu gün



15

## Hansı hallarda işçinin maaşından tutula bilər?



16

## Qalib Azərbaycanın Zəfər tarifi!




11

## Dələduzluq, yoxsa küçə mədəniyyəti?



7

## Şahramanyanla Sarqsyan nədən danışıblar?



13

# “Azərbaycan Cənubi Qafqaz ölkələri arasında regional əməkdaşlığı dəstəkləyir”

## Prezident İlham Əliyev Almaniyanın xarici işlər nazirini qəbul edib



**Prezident İlham Əliyev noyabrın 4-də Almaniya Federativ Respublikasının xarici işlər naziri Annalena Berboku qəbul edib. Görüşdə Azərbaycan-Almaniya ikitərəfli əlaqələri, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və bütövlükdə Cənubi Qafqaz regionunda sülhün, sabitliyin və təhlükəsizliyin təmin olunması məsələləri ətrafında fikir mübadiləsi aparıldı.**

Almaniyanın xarici işlər naziri ölkəsinin Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsinin imzalanması və bu xüsusda Avropa İttifaqının dəstəyi ilə aparılan Brüssel platformasını dəstəklədiyini diqqətə çatdırdı. O, həmçinin Azərbaycanın üzləşdiyi humanitar mina probleminin aradan qaldırılmasına Almaniyanın kömək göstərməyə hazır olduğunu bildirdi.

Dövlətimizin başçısı bu ilin martında Almaniyaya səfərini və səfər çərçivəsində Kansler Olaf Şolts, Prezident Frank-Valter Ştaynmayer ilə keçirdiyi görüşləri məmnunluqla xatırladı.

Prezident İlham Əliyev Azərbaycanın Cənubi Qafqaz ölkələri arasında regional əməkdaşlığı dəstəklədiyini bildirdi, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində bu üç ölkə arasında əməkdaşlığın indiyədək mümkün olmadığını qeyd etdi.

Dövlətimizin başçısı Ermənistanın son üç ildə Azərbaycanın Qarabağ bölgəsinə silah-sursatın və hərbi heyətin daşınmasını həyata keçirdiyini vurğuladı. Prezident İlham Əliyev sentyabrın 2-də Nikol Paşinyanın Ermənistan tərəfindən Azərbaycan ərazilərində yaradılmış və dəstəklənən qondarma rejimi təbrik etməsini və artıq özünü ləğv etmiş qondarma rejimin sentyabrın 9-da dırnaqarası ”seçkilər” keçirməsini regionda vəziyyətin gərginləşməsinə xidmət edən təxribatçı addımlar olduğunu bildirdi. Prezident İlham Əliyev lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycanın suverenliyini bərpa etdiyini və ölkəmizin Ermənistan ilə münasibətlərin normallaşdırılmasını, sülh müqaviləsinin imzalanmasını, regional sülh gündəliyini dəstəklədiyini diqqətə çatdırdı. Söhbət əsnasında Azərbaycan ilə Almaniya arasında ikitərəfli əlaqələrin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.



# Ali Radanın deputatı: ”Heydər Əliyev Ukrayna xalqı üçün çox işlər görüb”

***“Heydər Əliyev dost Azərbaycan-Ukrayna münasibətlərinin banisi, müasir Azərbaycanın memarıdır. Azərbaycan apardığı uğurlu xarici siyasət sayəsində bir çox dövlətlərin, xüsusilə də Ukraynanın strateji tərəfdaşıdır.”***




Bu fikirləri Taras Şevçenko adına Kiyev Milli Universitetində ”Heydər Əliyevin 100 illiyi. Azərbaycan-Ukrayna dostluq əlaqələrinin möhkəmlənməsində onun rolu” adlı dəyirmi masada çıxışı zamanı Ukrayna Ali Radasının deputatı, Ukrayna-Azərbaycan parlamentlərarası dostluq qrupunun həmsədri Valeriy Kolyux söyləyib.

”Azərbaycanla Ukrayna arasında sıx dostluq əlaqələri Kiyevlə Bakının diplomatik münasibətlərinin rəsmən qurulmasından xeyli əvvəl yaranıb. İki xalq arasında çoxdan dərin və ənənəvi dostluq mövcuddur. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Ukrayna xalqına həmişə xüsusi hərarət və diqqətlə yanaşıb. Hələ SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olarkən Ukrayna üçün çox işlər görüb. O, Ukraynada bir sıra iri sənaye müəssisələrinin, fabriklərin, mədəniyyət və idman komplekslərinin tikintisinə kömək göstərib.

Xüsusilə onun bilavasitə iştirakı ilə Kiyevdə Milli Filarmoniyanın bərpası üçün vəsait ayrılıb. Ulu Öndərin təşəbbüsü ilə Obolon zavodu və uşaq qidası fabriki tikilib. Kiyev metrosunun ən yüksək səviyyədə inşasında onun şəxsi dəstəyi vacib rol oynayıb”, - deyə Valeriy Kolyux əlavə edib. Deputat bildirib ki, Heydər Əliyev Çernobıl faciəsindən sonra Ukraynaya xüsusi diqqət yetirdi, zərərçəkənlər üçün mənzil tikintisi məqsədilə ölkəyə əlavə vəsait ayrıldı.

”Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyəti dövründə ölkələrimiz arasında uzunmüddətli perspektivə malik iqtisadi, ticarət, mədəni, elm, təhsil və humanitar sahələrdə hüquqi bazanın yaradılmasının və münasibətlərin tənzimlənməsinin əsasını qoyub. Bu layihələrin həyata keçirilməsi üçün 1994-1997-ci illərdə ölkələrimiz arasında 30-a yaxın saziş, müqavilə və protokol imzalanıb.

Xüsusilə 1994-cü il sentyabrın 20-də Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının birgə işlənməsi üzrə ilk iri müqavilə imzalanıb. 1997-ci ilin martında imzalanmış Azərbaycan və Ukrayna arasında neft və qaz sənayesində əməkdaşlıq haqqında Memorandum gənc müstəqil dövlətlər arasında neft-qaz sahəsində gələcək strateji əməkdaşlığın hüquqi əsası oldu. Azərbaycan və Ukrayna arasında azad ticarət, ticarət-iqtisadi əməkdaşlıq və dəstək haqqında razılaşmalar əldə olunub. Ukrayna və Azərbaycan arasında mədəniyyət və təhsil sahələrində əməkdaşlığa təkan verən azərbaycanlıların Azərbaycandan kənarda hazırlanması proqramı təqdim edilib”, - deyə deputat qeyd edib.

Valeriy Kolyux diqqətə çatdırıb ki, bu gün Azərbaycan və Ukrayna həm ikitərəfli, həm də çoxtərəfli əsasda əməkdaşlıq edir, beynəlxalq platformalarda bir-birinə qarşılıqlı dəstək verir və Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyevin başladığı yolu davam etdirirlər.

# Qazaxıstanlı ekspert: ”Türk Dövlətləri Təşkilatı beynəlxalq və qlobal subyektliyini artırır”

Türk Dövlətləri Təşkilatının Astanadakı 10-cu yubiley Zirvə görüşünün nəticələrini olduqca səmərəli və dönüş yaradıcı adlandırmaq olar. TDT dinamikası ilə fərqlənir, daim inkişaf edir, səlahiyyətinin və əməkdaşlığın dairəsini genişləndirir. Bu fikri AZƏRTAC-la qazaxıstanlı politoloq, siyasi elmlər doktoru Talqat Kaliyev bir gün əvvəl Qazaxıstan Respublikasının paytaxtında keçirilmiş Türk Dövlətləri Təşkilatının (TDT) Zirvə görüşü barədə danışarkən bölüşüb.



Onun sözlərinə görə, bundan əvvəl TDT əsasən mədəni birlik kimi qəbul edilirdisə, indi bu həm də iqtisadi strukturdur və onun nəzdində Türk İnvestisiya Fondu fəaliyyət göstərir. Bununla əlaqədar olaraq o, dünənki Zirvə görüşündə Qazaxıstanın ölkələrimiz arasında əmtəə dövriyyəsinin həcminin dəfələrlə artırılması zərurəti barədə bəyanatını vurğulayaraq, bunun iddialı, lakin olduqca real vəzifə olduğunu qeyd edib.

”Bundan əlavə, həmçinin siyasi bəyanatlar verilir, vahid mövqelər, baxışlar, yanaşmalar işlənib hazırlanır. Yəni, Türk Dövlətləri Təşkilatı planlı şəkildə beynəlxalq, qlobal subyektliyini artırır və şübhəsiz ki, dünya birliyi tərəfindən ciddi və nüfuzlu təşkilat kimi qəbul ediləcək”, - deyə agentliyin həmsöhbəti vurğulayıb.

Eyni zamanda, o, hələ ki, söhbətin təhlükəsizlik sahəsində əməkdaşlıqdan getmədiyini əlavə edib. ”Hələ ki, biz hərbi və hərbi-texniki əməkdaşlıq xətti ilə ikitərəfli əlaqələri genişləndiririk. Lakin mən düşünürəm ki, bütün dünyada turbulentliyin artırılmasını nəzərə alsaq, bu meyar da yaxın zamanda reallaşdırıla bilər”, - deyə T.Kaliyev bildirib.

Ümumilikdə politoloqun fikrincə, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Türkiyədən keçəcək Orta Dəhlizin inkişafının əhəmiyyətini nəzərə alsaq, bu təşkilatın gələcəyi olduqca ümidvericidir. ”Zənnimcə, Xəzər dənizi üzərindən ötürmə qabiliyyətinin inkişafı ilə həm TDT-nin iqtisadi potensialı, həm də onun bütün dünya üçün strateji əhəmiyyəti artacaq”, - deyə ekspert sözlərini yekunlaşdırıb.

# “Azərbaycan böyük Türk dünyasının bir hissəsidir”

## Dünya mediası Türk Dövlətləri Təşkilatının Astanadakı yubiley Zirvə görüşünə geniş yer ayırıb

**Azərbaycan Prezidenti İlham Əliyevin noyabrın 3-də Astanada Türk Dövlətləri Təşkilatının ”Türk Əsri” çağırışı altında 10-cu yubiley Zirvə görüşündə iştirakı, toplantıda səsləndirilən fikirlər və keçirilən ikitərəfli görüşlər dünya mediası tərəfindən geniş işıqlandırılıb.**

Belə ki, Türkiyənin ”TRT Haber”, Anadolu Agentliyi, ”Yeni Şafak”, ”En son haber”, ”Haberler”, ”Cumhuriyet”, ”Son dakika” və digər media qurumları tərəfindən yayımlanan xəbərlərdə Prezident İlham Əliyev tərəfindən Türk Dövlətləri Təşkilatının nüfuzunun bundan sonra da artacağına əminlik ifadə edildiyi, təşkilata üzv ölkələrin təhlükəsizlik, müdafiə və müdafiə sənayesi kimi sahələrdə əməkdaşlığının daha da artırmasının əhəmiyyətinin vurğulandığı bildirilir.

Yazılarda Azərbaycanın Türk dövlətlərinin iqtisadiyyatına 20 milyard dollardan çox sərmayə yatırdığı, Azərbaycan-Özbəkistan İnvestisiya Fondu və Azərbaycan-Qırğızıstan İnkişaf Fondunun yaradıldığı, cari ilin yanvar-sentyabr aylarında ölkəmizin Türk dövlətləri ilə ticarət dövriyyəsinin 40 faiz artdığı, Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə Türkiyə və Avropa bazarları arasında etibarlı tranzit ölkə kimi özünü təsdiqlədiyi və Şərq-Qərb nəqliyyat dəhlizinin dayanıqlı fəaliyyətinə töhfə verdiyi vurğulanıb.

”TRT Haber”in yaydığı materialda Prezident İlham Əliyevin fikirlərinə istinad olunaraq, Qarabağdakı bərpa-quruculuq işlərinə Azərbaycan büdcəsindən 7 milyard dollar vəsait sərf edildiyi, gələn il azı 2,4 milyard dolların ayrılacağı bildirilir. Vurğulanır ki, Böyük Qayıdış Proqramı uğurla icra edilir, keçmiş məcburi köçkünlər Laçın və Füzuli şəhərlərinə və üç kəndə qayıdıb, 2026-cı ilin sonunadək Qarabağa və Şərqi Zəngəzura 140 mindən artıq insanın geri dönməsi nəzərdə tutulur.

”Yeni Şafak” saytının yaydığı məqalədə Prezident İlham Əliyevin bu fikirləri yer alıb: ”Bütün bu illər ərzində Azərbaycan münaqişəni sülh yolu ilə həll etməyə çalışırdı. Lakin Ermənistanın məqsədi işğala əsaslanan status-kvonu möhkəmləndirmək idi. 2020-ci ildə Ermənistan rəhbərliyinin təxribat xarakterli hərəkətləri və bəyanatları, o cümlədən hərbi təxribatları İkinci Qarabağ müharibəsini qaçılmaz etdi. 2020-ci ildə 44 günlük Vətən müharibəsində Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq, özünümüdafiə hüququndan istifadə edərək Ermənistanı döyüş meydanında məğlubiyyətə uğratdı və ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi”.

Yazıda Azərbaycanın 2023-cü il sentyabrın 19-da işğaldan azad edilmiş torpaqlarımızda qanunsuz hərbi birləşmələrin zərərsizləşdirilməsi məqsədilə lokal xarakterli antiterror tədbirləri həyata keçirdiyi, 23 saat ərzində bitən əməliyyat nəticəsində Azərbaycan özünün suverenliyini və konstitusiya quruluşunu tam bərpa etdiyi vurğulanır.

Qazaxıstanın ”Kazinform”, ”Golos naroda”, ”Sputnik”, ”Baq”, ”Tengri news”, ”Kursiv”, ”Arbat media”, ”Smi24”, ”Orda”, ”Inbusiness”, ”Zakon”, ”Baigenews”, ”Astana tv” kimi informasiya saytları və xəbər portalları Prezident İlham Əliyevin Azərbaycanın böyük Türk dünyasının bir hissəsi olduğunu, dostluğumuzun, qardaşlığımızın əbədi olacağını söylədiyi və Türk Dövlətləri Təşkilatının beynəlxalq nüfuzunun daha da artacağına əminliyini ifadə etdiyi vurğulanır.

Azərbaycan Prezidenti İlham Əliyevin Füzuli şəhərində inşa edilən yaradıcılıq mərkəzinə görə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə təşəkkür etdiyi, bunun Azərbaycan və Qazaxıstan xalqları arasında olan dostluğun və qardaşlığın təzahürü olduğunu vurğuladığı bildirilir.

”Turan Times” saytı yazır ki, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Zirvə görüşündə Azərbaycan Prezidenti İlham Əliyevi və xalqımızı ölkəmizin ərazi bütövlüyünün bərpası və dövlətçiliyin möhkəmləndirilməsi münasibətilə təbrik edib. Kasım-Jomart Tokayev deyib ki, Azərbaycanın öz ərazi bütövlüyünü təmin etməsi Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq atılıb.

Materiallarda Qazaxıstan Prezidentinin Rəcəb Tayyib Ərdoğanı Türkiyə Cümhuriyyətinin yaranmasının 100 illiyi münasibətilə təbrik etdiyi, Türk Dövlətləri Təşkilatının hazırkı sədri, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə ölkələr arasında əməkdaşlığın möhkəmlənməsinə verdiyi töhfəyə görə xüsusi minnətdarlığını bildirdiyi qeyd olunur.

Özbəkistanın ”Qalampir” saytında xəbərində bildirilir ki, Prezident Şavkat Mirziyoyev Zirvə görüşündə Azərbaycan Prezidenti İlham Əliyevi ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpası münasibətilə təbrik edib.

”Newshub” portal qeyd edir ki, Prezident Şavkat Mirziyoyev Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi altında böyük uğurlar əldə etdiyini, tarixi Qələbə qazandığını, Qarabağda bərpa-quruculuq istiqamətində mühüm nəticələr əldə etdiyini bildirib.

Vurğulanır ki, Şavkat Mirziyoyev bu yaxınlarda Şuşaya və Füzuliyə səfər edib, burada infrastrukturun yenidən qurulması və dağıdılmış mədəni irs obyektlərinin bərpası işləri ilə şəxsən tanış olub.

Macarıstanın ”Hvg”, ”24.hu”, ”hirstart”, ”rtl”, ”444.hu”, ”Magyar narancs”, ”Telex”, ”Szeged”, ”Hirnavigato” saytları Baş nazir Viktor Orbanın Zirvə görüşündə Prezident İlham Əliyevi regionda sabitliyə nail olunması istiqamətində göstərdiyi səylərə və nailiyyətlər münasibətilə təbrik etdiyini, Qarabağın bərpası işlərinə uğurlar arzuladığını oxucuların diqqətinə çatdırıb.

Qeyd edilir ki, Viktor Orban Türk dövlətləri arasında əməkdaşlığın daha da gücləndirilməsinin zəruriliyini bildirib, Türkiyə Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü münasibətilə Prezident Rəcəb Tayyib Ərdoğanı təbrik edib.

İspaniyanın ”EFE” agentliyi, ”Vivir ediciones”, ”Que pasa”, ”Infobae”, ”Lado”, ”Minuto30” saytları yazır ki, Azərbaycan Qarabağın yenidən qurulmasına 9,4 milyard dollardan çox sərmayə qoyacaq.

Yazılarda Türk dövlətləri arasında reallaşdırılan layihələrin, Xəzərdən keçən Şərq-Qərb layihəsinin - Orta Dəhlizin rolunun artırılması istiqamətində səylərin davam etdirilməsinin əhəmiyyəti vurğulanır.





















## Türk dünyasının birliyini möhkəmləndirən
# ALTERNATİV GÜC






**Türk Dövlətləri Təşkilatının ”Türk əsri” devizi altında 10-cu yubiley Zirvə Toplantısı bütün dünyanın diqqətini cəlb edib. Bu da səbəbsiz deyil. Səbəb də odur ki, bir qədər əvvəl Türk Şurası kimi tanınan bir təşkilat qısa zaman kəsiyində sadə dialoq platformasından iqtisadi-ticarət əməkdaşlığını genişləndirən dövlətlərin dinamik birliyinə çevrilib və əlbəttə ki, belə bir institusional transformasiya diqqəti cəlb etməyə bilməzdi, çünki türk dünyasının birliyini daha da möhkəmləndirən alternativ güc artıq göz önündədir.**

Heç kim üçün sirr deyil ki, hal-hazırda artıq dünya ölkələri bir çox cəhətdən ümumi maraqlar əsasında, eləcə də cari və ya gələcək çağırışların təsiri altında formalaşaraq bloklaşmaqda və qruplaşmaqdadırlar. Məhz belə ümumi maraqlar, həmçinin cari və ya gələcək çağırışlar kontekstində Türk Dövlətləri Təşkilatının inkişafı üçün böyük potensialın olduğu da danılmazdır. Ona görə ki, türkdilli ölkələrin dil, mədəniyyət və tarixi oxşarlıqlara, yaxınlıqlara görə obyektiv olaraq öz aralarında əməkdaşlığı gücləndirmək marağı təkzib edilə bilməz və bu əməkdaşlıq böyük perspektivlər vəd edir. Həm də axı Türk Dövlətləri Təşkilatı ölkələri arasında ikitərəfli və çoxtərəfli münasibətlərin əsas məsələlərində praktiki olaraq heç bir əsaslı fikir ayrılığından söhbət belə gedə bilməz və bunun fonunda da bütün mühüm beynəlxalq məsələlərdə bu ölkələrin mövqeləri bir-biri ilə üst-üstə düşür.

Xatırlamaq və hətta diqqətə çatdırmaq yerinə düşərdi ki, istər ayrı-ayrılıqda dövlətlərin, istərsə də ümumilikdə Avrasiya regionunun iqtisadi maraqları, geosiyasi və təhlükəsizlik məsələləri də türkdilli dövlətlər arasında əməkdaşlığın genişləndirilməsi məsələsini ön plana çəkir. Məhz bunun fonunda da əməkdaşlığın keyfiyyətcə yeni müstəviyə keçirilməsi tələbi formalaşır və çox böyük perspektivlər vəd edir. Bu perspektivlərin fonunda da Türk Dövlətləri Təşkilatı ölkələri arasında nəinki iqtisadi-ticari, həmçinin yaxın gələcəkdə mədəni və hərbi-texniki əməkdaşlığın da dinamik şəkildə inkişaf etdiriləcəyi gözləniləndir. Məhz bu baxımdan təhlükəsizlik məsələlərinin müzakirəsi də qətiyyən təsadüfi hesab edilə bilməz. Görünür elə həm diqqəti cəlb edən və həm də bir çoxlarının hansısa mənada marağına səbəb olan da budur.

Dünya düzənində baş verən proseslər, yeniliklər, ələlxüsus da beynəlxalq hüquqa məhəl belə qoymayan ”yeni normalar”, ikili standartlar, ikili və ədalətsiz yanaşmalar əslində bəşəriyyəti narahat edən məqamlardır. Ölkələrin bir-biri ilə istər hibrid informasiya xarakterli, istərsə də açıq silahlı münaqişələri heç də arzuolunan hal deyil. Özü də bu hal, ölkələrin heç biri üçün arzuolunan sayıla bilməz, baxmayaraq ki, proses hamı üçün eyni müstəvidə gedir və ölkələrin hamısı da, ən azından bir-birini iştirakçı hesab edir və bir-birindən ehtiyatlanır. Görünür elə buna görə də onların hamısı bir-biri ilə ya açıq, ya da gizli şəkildə mübarizə aparmaqdadırlar. Bütün bu proseslərin fonunda artıq gözümüzün qarşısında yeni dünya düzəni formalaşmaqdadır və bu düzənin şərtləri də olduqca sərtdir. Çünki bir çox ölkələri bir blokda birləşdirən layihələr və ümumilikdə dünyamızı qütbləşdirən modellər arasında olduqca sərt, olduqca şiddətli rəqabət gedir. Belə bir şəraitdə Türk Dövlətləri Təşkilatının mövcudluğu, uğurlu fəaliyyəti hazırki mövcud ”sistemin balanssızlığına” tamamilə güclü dayanış, qətiyyətli və məntiqli cavabdır, eləcə də alternativ güc deməkdir. Ələlxüsus da, mütəmadi şəkildə dəyişkən, mübarizələrin gizli olduğu və açıq şəkildə biruzə verdiyi dünyada sözügedən təşkilatda olmaq doğma bir ”dayaq” tapmaq, alternativ güc deməkdir və bunu da dünya ölkələri çox yaxşı başa düşürlər. Elə türkdilli ölkələri özlərinə düşmən bəlləyənləri də narahat edən sözsüz ki, bu məqamlardır.

Türkiyə, Azərbaycan və Mərkəzi Asiyanın qardaş türkdilli dövlətləri son illər ticarət, eləcə də yükdaşımalarını genişləndirmək üçün yeni platformalar qurur və görünən odur ki, ənənəvi enerji və digər xammalın tranziti ilə bərabər, qeyri-neft ticarəti də son bir neçə ildə artmaqdadır. Xüsusən də Rusiya-Ukrayna müharibəsi fonunda Avrasiya məkanında baş verən geosiyasi dəyişikliklər nəzərə alınmaqla, Türk Dövlətləri Təşkilatı ölkələri arasında ticarət və nəqliyyat əməkdaşlığına ehtiyac daha da artır, öz aktuallığını da qoruyur. Ələlxüsus da Şərq və Qərb arasında ənənəvi logistikanın pozulması fonunda Xəzər dənizinin şərq sahilində yerləşən Qazaxıstan, Türkmənistan və dənizə çıxışı olmayan Özbəkistan, eləcə də Qırğızıstan Azərbaycan və Türkiyə ilə birlikdə üç əsas məlum layihə çərçivəsində əməkdaşlığı dərinləşdirir. Məhz bu əməkdaşlığın fonunda da tərəfdaş ölkələr regional logistikanın optimallaşdırılması və nəqliyyat infrastrukturunun modernləşdirilməsi, telekommunikasiya və İnformasiya Texnologiyaları sektorları, turizm, təhsil, gənclər siyasəti sahəsində və digər istiqamətlərdə əməkdaşlığı genişləndirmək planlarını gerçəkləşdirməkdədirlər. Cari ilin ilk rübündə, daha dəqiq desək, bu ilin mart ayında, sözügedən təşkilatın fövqəladə sammitində Türk İnvestisiya Fondunun yaradılması haqqında təsis müqaviləsinin imzalanması isə onu deməyə əsas verir ki, investisiya əməkdaşlığına da yeni formatda start verilib və artıq kənd təsərrüfatı sektorunun strateji sahələrində təşəbbüslərin reallaşdırılması, eləcə də ərzaq təhlükəsizliyinin birgə gücləndirilməsi ilə bağlı razılığa da gəlinib. Beş təsisçi ölkənin bərabər töhfələri hesabına 500 milyon dollarlıq nizamnamə kapitalı formalaşacaq Türk İnvestisiya Fondunun birgə regional istehsal layihələrinin dəstəklənməsində xüsusi rolu olacaq və iştirakçı ölkələrin iqtisadi potensialının inkişafı, onlar arasında ticarət-iqtisadi əməkdaşlığın gücləndirilməsi, birgə investisiya layihələrinin həyata keçirilməsi, kiçik və orta müəssisələrin, təchizat zəncirlərinin, regiondaxili ticarət və elektron ticarət, kənd təsərrüfatı, ”yaşıl” enerji, turizm və digər istiqamətlərdə səylər əsas vəzifə hesab olunur.

Dünyada vəziyyətin qeyri-stabil, eləcə də kövrək olaraq qaldığı bir dönəmdə türk dövlətlərinin çağırış və təhdidlərə qarşı birləşməsi, qarşılıqlı dəstək və birgə təsirli tədbirlər görməsi hər zamankından daha vacib hesab olunur. Ələlxüsus da bu təlatümlü bir dövrdə türk xalqlarının birləşməsi ümumi təhlükəsizliyimizin etibarlı təminatı deməkdir. Xüsusilə qeyd etmək yerinə düşərdi ki, terrorizmin, ekstremizmin, silah və narkotik ticarətinin artdığı bir zamanda təhdidlərin qarşısının alınması məqsədi ilə təhlükəsizlik sahəsində əməkdaşlığın gücləndirilməsi əvəzsizdir və olduqca əhəmiyyətlidir. Azərbaycanın apardığı 44 günülük müharibə, son antiterror tədbirləri, Qazaxıstanda ötən ilin əvvəlində baş verən hadisələr göstərdi ki, təşkilata üzv olan ayrı-ayrı dövlətlərin öz təhlükəsizliyini təmin edəcək mərhələyə qədəm qoyması gərəkir. Xatırladaq ki, ötən əsrin 90-cı illərində və 2000-ci ilin əvvəllərində bu imkanlar yox idi, amma indi imkanlar və perspektivlər artmaqdadır. Məhz Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Türkiyə-Azərbaycan əməkdaşlığı nümunəsində ayrılıqda, yaxud əməkdaşlıq şəraitində təhlükəsizliyə töhfə vermək imkanları genişlənməkdədir.

Alternativ güc olmaq yolundakı təməl üzərində inşa edilən sütunlar Türk Dövlətləri Təşkilatına beynəlxalq səviyyəli çəki, Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasındakı bağlantıları təmin edən nüfuzlu bir təşkilat statusu qazandırır. Məhz bu status üzv ölkələri üçün təhlükəsizliyin təminatı, təkcə üzv dövlətlərdə deyil, dünyada yaşayan soydaşlarımızın hüquqlarının müdafiəsinə yönələn siyasəti həyata keçirmək üçün əvəzsizdir. Ölkə rəhbərimizin, cənab Prezident İlham Əliyevin dediyi kimi, Türk Dövlətləri Təşkilatına üzv olan ölkələrdən kənarda yaşayan soydaşlarımızın hüquqlarının, təhlükəsizliyinin, milli kimliyinin qorunması, onların assimilyasiyaya uğramaması kimi məsələləri artıq təşkilat çərçivəsində daimi əsasda diqqətdə saxlamağın vaxtı gəlib çatıb. Bütün bunların fonunda da türk dövlətlərinin birliyinin möhkəmləndirilməsinin nə dərəcədə zəruri olduğu özünü qabarıq şəkildə büruzə verir və alternativ güc olan Türk Dövlətləri Təşkilatının beynəlxalq nüfuzunun daha da artması böyük bir ailə olan türk dünyasının birliyinin möhkəmlənməsi deməkdir.

***İnam Hacıyev***

# Ulu Öndər Heydər Əliyev müasir Azərbaycanın memarıdır

## YAP Şuşa rayon təşkilatı tərəfindən "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib




”Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Şuşa rayon təşkilatı noyabr ayının 4-də Azərbaycan Dövlət İqtisad Universitetinin akt zalında tədbir keçirib. Əvvəlcə Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad olunub. Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Ümummilli Liderin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Şuşa rayon təşkilatının sədri Təvəkkül Əliyev Ümummilli Lider Heydər Əliyevin öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış  və ardıcıl mübarizə apararaq müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyət  olduğunu deyib. Onun sözlərinə görə, Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi illər ərzində ağır vəziyyətdə olan ölkəmiz dahi şəxsiyyətin fədakar əməyi, böyük zəhməti sayəsində tərəqqiyə doğru inamla addımlayıb: ”Ulu Öndər Heydər Əliyevin siyasi kursu Prezident İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, qəhrəman Ordumuzun gücü, qüdrəti ilə torpaqlarımızın işğaldan azad olunması şuşalıların doğma yurd həsrətinə son qoyub. Şuşa və şuşalılar gələcəyə böyük inamla və ümidlərlə baxırlar”.

YAP İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov müstəsna xidmətləri ilə əbədilik qazanan Ümummilli Lider Heydər Əliyevin böyük, mənalı və şərəfli həyat yolu, zəngin və çoxşaxəli irsi haqda danışıb. O bildirib ki, bütün həyatını xalqının xoşbəxt gələcəyinə həsr etmiş Ulu Öndər Heydər Əliyevin Vətən və xalq qarşısındakı xidmətləri misilsizdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoyub. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin ideyalarının təntənəsidir.

YAP Veteranlar Şurasının üzvü, Milli Məclisin deputatı Elman Məmmədov söyləyib ki, ölkəmiz dünyada layiq olduğu mərtəbəyə Ulu Öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksələ bilib. Vətəni, xalqı qarşısında misilsiz xidmətlərinə görədir ki, bu gün Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi ölkəmizin hər yerində və onun hüdudlarından kənarda hər bir azərbaycanlının yüksək ehtiramı və dərin minnətdarlıq hissi ilə geniş qeyd olunur. Heydər Əliyevin keçdiyi böyük, mənalı və şərəfli həyat yolu zaman və məkan anlayışına sığmır.

Milli Məclisin deputatı Fatma Yıldırım Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın dövlətçilik tarixindəki müstəsna yeri və rolundan bəhs edib. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə ölkəmizin davamlı inkişaf etdiyi, Ulu Öndərin şah əsəri olan müstəqil Azərbaycanın yeni zirvələr qət etdiyi xüsusi vurğulanıb. F.Yıldırım Ümummilli Liderin milli-mənəvi dəyərlərimizə verdiyi dəyərdən danışıb və bu istiqamətdə görülən işlərə diqqət çəkib.

Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov  Ulu Öndər Heydər Əliyevin siyasi fəaliyyətindən, Ümummilli Liderin fədakar əməyi, qətiyyəti, möhkəm siyasi iradəsi sayəsində müasir Azərbaycan dövlətçiliyinin siyasi, iqtisadi əsaslarının yaradılmasından, respublikamızın dünya məkanında öz layiqli yerini tutmasından, ölkəmizin bütün sahələrində baş vermiş müsbət dəyişikliklərdən söhbət açıb. Qeyd olunub ki, müstəqil Azərbaycanın qazandığı bütün müvəffəqiyyətlər Ümummilli Lider Heydər Əliyevin uğurlu və uzaqgörən siyasətinin nəticəsidir. Şəhid atası Nadir Həsənov, İkinci Qarabağ müharibəsi qazisinin atası Elxan Ələkbərli  çıxışlarında Heydər Əliyev siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin əldə etdiyi nailiyyətlərdən, habelə torpaqlarımızın işğaldan azad edilməsindən, bu gün həmin ərazilərdə aparılan abadlıq-quruculuq işlərindən bəhs ediblər. Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərman, YAP sıralarına yeni qoşulanlara üzvlük vəsiqələri təqdim edilib. Tədbirə bədii hissə ilə yekun vurulub.



# Cəmiyyətlə sıx və açıq ünsiyyət

## 6 noyabr Azərbaycanda radio və televiziya işçilərinin peşə bayramı günüdür

Azərbaycanda XX əsrin ən möhtəşəm kəşflərindən olan və hər gün insanlarla ünsiyyət yaradan, cəmiyyət həyatında əvəzsiz yer tutan radio bir əsrə yaxın bir məsafədə informasiya liderliyini qoruyub-saxlaya bilib. İstənilən bir yeniliyi, informasiyanı, dünya panoramasını bir neçə dəqiqə ərzində cəmiyyətə ötürərək və onun informasiyaya olan tələbatını ödəyir. Sirli-soraqlı dünyamızdan bizlərə məlumatları çatdıran radiomuz bu illərdə, qərinələrdə olan tariximizin keşməkeşli, uğurlu zamandan dinləyicilərinə danışıb. Bəzən sevindirib, bəzən kövrəldib, bəzən də tariximizin dönəmində bizləri düşündürüb. Nələri bizə danışmayıb. Diqqətimizi ondan çəkməmişik. Axı əsrlərin tarixindən süzülüb gələn ulu babalarımızın yaşadığı zaman, bu günün həqiqətləri radiodan eşitdiyimiz məlumatlarda bizləri böyük bir xalqın keçdiyi yol ilə baş-başa qoyub.

Xalqın maarifləndirilməsi, əxlaqi-estetik tərbiyəsi, məlumatlandırılması kimi təməl prinsiplərini fəaliyyət məqsədinə çevirən radio istənilən məkanda dinləyicilərin dostu olaraq, hər nəslin müasirinə çevrilir. Dünya dəyişir, yenilənir, amma xalqın maarifləndirilməsi, əxlaqi-estetik tərbiyəsi, məlumatlandırılması kimi təməl prinsiplərini fəaliyyət məqsədinə çevirən radio istənilən məkanda dinləyicilərin dostu olaraq, hər nəslin müasirinə çevrilir. 1926-cı ilin 6 noyabr tarixində yaradılan Azərbaycan radiosu xalqın ictimai-fikir tarixində yeni bir gün, əvəzsiz zamandır. Həmin tarix hər zaman xatırlanır, paytaxtının küçə və meydanlarında qurulmuş reproduktorlardan yayımlanan verilişlər Azərbaycan xalqının həyatına böyük yenilik gətirdiyi üçün yazılı tariximizdə - salnamələrdə yer alıb.

Bu gün radionun bütün proqramları millimənəvi dəyərləri, milli adət və ənənələri, mədəniyyət və incəsənətin bütün rəngarəngliyini özündə əks etdirir. Müxtəlif məzmunlu proqramlar hazırlayarkən cəmiyyətdəki siyasi əqidələri, dini baxışları, ictimai fikir və rəyin müxtəlif cərəyanlarını, habelə, ölkə vətəndaşlarının hüquq bərabərliyini nəzərə alır. Geniş dinləyici auditoriyası toplayan Azərbaycan radiosu Azərbaycan qanunvericiliyinə əsaslanaraq, informasiyanın tərəfsizliyi, qərəzsizliyi və doğru-dürüstlüyünü əsas tutur. Yeni dolğun xəbərlərlə xalqımızı məlumatlandırır, hər hansı hadisəyə qərəzli, öz şəxsi mənafeyi baxımından yanaşmır. Tarixi dövrü vərəqlədikcə "Satira atəşiylə", "Ədəbiyyatın vəzifələri", "Radio saatı" kimi verilişlərin səsləndirilməsi ilə ilk, kövrək addımlarını atan radio qısa bir zamanda zəngin verilişlərin yaradıcısına çevrilir. Təbii ki, radioda yeni verilişlərin hazırlanması və yeniliklər yeni, istedadlı kadrların cəlb olunmasını tələb edirdi.

Radionun ilk azərbaycanlı diktorları Azərbaycan Politexnik İnstitutunun tələbəsi İsmayıl Əlibəyov və Azərbaycan Dövlət Darülfünunun hüquq-iqtisad fakültəsinin tələbəsi Raya İmanzadə olurlar. Azərbaycan radiosunun inkişaf etdiyi sonrakı mərhələdə isə Fatma Cabbarova, Züleyxa Hacıyeva, Gültəkin Cabbarlı, Aydın Qaradağlı, Sabutay Quliyev kimi ustad diktorlar yetişirlər. Radioya peşəkar mütəxəssislərin yol açması Azərbaycan radiosunun gündəlik verilişlərinin həcminin artmasına gətirib çıxarır. İlk verilişlərin hazırlanmasında Azərbaycan ədəbiyyatı və incəsənətinin görkəmli xadimləri fəal iştirak edirdilər. Bədii və musiqili verilişlərin müəllifləri Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Məmməd Səid Ordubadi, Cəfər Cabbarlı, Səməd Vurğun, Hüseynqulu Sarabski, Bülbül, Mustafa Mərdanov kimi Azərbaycan mədəniyyətində yeri və çəkisi olan sənətkarlar olur. Qısa məsafədə radionun dinləyici auditoriyası da genişlənir və Bakıda 35 kilovat gücündə yeni radio stansiyasının işə salınması ilə Azərbaycan radiosunun verilişləri Qafqazda, Özbəkistanda, Türkmənistanda, hətta Qara dənizin şərq sahillərində eşidilir.

1940-cı ilin sonunda ölkə ərazisində radio nöqtələrinin sayı 51 minə çatır. 32 rayonda yerli radio verilişləri redaksiyaları fəaliyyətə başlayır.

1931-ci ilini dekabrında H.Cavidin "Şeyx Sənan" pyesi ilk dəfə radioda səsləndirildi. Daha sonra A.S.Puşkinin "Boris Qodunov", C.Məmmədquluzadənin "Ölülər", C.Cabbarlının "Aydın", "1905-ci ildə", "Yaşar", "Sevil", V.Şekspirin "Hamlet", M.F.Axundovun "Hacı Qara", Ə.Haqverdiyevin "Dağılan tifaq" pyesləri dinləyicilərə təqdim edildi. İlk radio tamaşaları birbaşa efirə çıxarılırdı.

### "AZƏRBAYCAN - CƏBHƏ ÜÇÜN"Ü HƏR KƏS BÖYÜK HƏYƏCANLA GÖZLƏYİRDİ

Xalqın bir əsrə yaxın tarixi ilə birgə yol gələn Azərbaycan radiosu keşməkeşli günlərin də, xoş soraqların da tarixini əbədiləşdirib. Bu gün arxiv materialları bizə yaşanılan illəri təqdim edir. Azərbaycan radiosu ilə dinc və təmiz səma altında yaşayan insanlara Böyük Vətən müharibəsinin elan olunmasını - gərgin, fövqəladə, acınacaqlı bir xəbəri ictimaiyyətə çatdırmaq nə qədər çətin olsa da, bu gerçəkliyi hamıya bəyan etdi. 1941-ci il iyunun 22-nə keçən gecə müharibənin başlanmasını Azərbaycan dinləyicilərinə diktor Zəhra Salayeva zirzəmidəki yarımqaranlıq bir otaqdan xəbər verir. Həmin zamandan 5 il müddətində Azərbaycan radiosunun işçiləri faşizmlə mübarizədə mikrofonu ən kəsərli silaha çevirirlər. Müharibə dövrünün tələblərinə uyğun olaraq, radio buraxılışları çox qısa müddətdə hazırlanır, verilişlər gecə-gündüz ara vermədən yazılır və montaj edilirdi. Həmin dövrdə xəbər buraxılışlarının sayı artır və radionun gündəlik verilişlərinin həcmi 5 saata qədər artır. Ağır müharibə dövrünün ən çox dinlənilən verilişi "Azərbaycan - cəbhə üçün"ü hər kəs böyük həyəcanla gözləyirdi. Əsas ağırlıq isə, təbii ki, "Son xəbərlər" redaksiyasının üzərinə düşürdü. Hər gün dinləyiciyə mühüm məlumatlar, dövlət qərarları 30 dəqiqə ərzində tərcümə edilərək, Azərbaycan dilində çatdırılırdı. Elə qələbə sorağını da Azərbaycan dinləyicisi radio vasitəsi eşidir. Həmin dövrdə SSRİ rəhbərliyi radionun ictimai-siyasi, mədəni həyatda və faşizmə qarşı mübarizədə oynadığı böyük rolu nəzərə alaraq, 1945-ci il mayın 2-də xüsusi qərarla mayın 7-sini Radio Günü elan edir. Bu tarixi gün uzun illər boyu Azərbaycanda da bayram edilir. Amma tarixi ədalət qələbə çalır. Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra Azərbaycan radiosunun yaranma günü - noyabrın 6-sı "Azərbaycan Televiziya və Radio işçilərinin peşə bayramı" elan olundu. Müharibədən sonra radio verilişlərinin forma və məzmununda müəyyən dəyişikliklər baş verdi. 1951-ci ildə yaradılan II proqram respublika radiosunun fəaliyyət dairəsini genişləndirdi. 1956-cı ildə Azərbaycan radiosunun yaranmasının 30 illiyi qeyd olundu. Radioda ictimai-siyasi, ədəbiyyat, musiqi, sənaye, kənd təsərrüfatı, uşaq və gənclər proqramlarının hazırlanmasına üstünlük verilirdi. Efirdə hər gün 12-15 konsert proqramı səsləndirilirdi. 1956-cı ildən televiziyanın fəaliyyətə başlaması radionu öz işini rəqabət şəraitində qurmağa məcbur etdi.

### ŞƏRQDƏ İLK TELEVİZİYA - AZƏRBAYCAN TELEVİZİYASI

Şərqdə ilk dəfə yaradılan və milyonların seyrçisi olduğu Azərbaycan Televiziyası radiodan düz 30 il sonra - 1956-cı il fevralın 14-də fəaliyyətə başladı. İlk veriliş günü ekranda Azərbaycanın tanınmış sənətkarı, gənc aktrisa Nəcibə Məlikova görünüb. Radio başlanan zaman "Danışır Bakı" deyildiyi kimi, Nəcibə xanım da "Göstərir Bakı!" kəlməsi ilə tamaşaçıları televiziyanın fəaliyyətə başlaması münasibətilə təbrik edib. Televiziya fəaliyyətə başladıqdan sonra da radio öz dinləyicilərini ətrafında saxlaya bildi. 1964-cü il oktyabrın 15-də Azərbaycan radiosunun "Araz" xəbərlər və musiqi proqramı ilk dəfə efirə çıxdı. "Araz" əvvəlki dövrdə dinləyicilərə 12 saatlıq veriliş təqdim edirdi. Müəyyən müddətdən sonra isə radionun I proqramı ilə yayımlanan bəzi verilişlər "Araz" vasitəsilə təkrar olundu.

### MİLLİ VERİLİŞLƏRİN İLK QARANQUŞU "BULAQ"

Ötən əsri 70-ci illəri Azərbaycan radiosu üçün, xüsusilə, əlamətdar olmuşdur. "Sabahınız xeyir", "Axşam görüşləri", "Bulaq", "Natəvan" qızlar klubu, "Lirika dəftərindən", "Muğam saatı", "Arzu" musiqi poçtu, "Yazıçı və zaman", "Mahnı şəhəri gəzir", "Teatr mikrofon qarşısında" kimi verilişlər radionun nufuzunu daha da yüksəldir. Bu verilişlərdə xalqın ruhu, onun folklor irsi və tarixi mədəniyyəti kimi dəyərlər öz əksini tapır. Milli maraq və düşüncədən qaynaqlanan bu verilişlərin hazırlanması Ulu Öndər Heydər Əliyevin radioya ayırdığı diqqətdən irəli gəlirdi. Heydər Əliyev radionun böyük təbliğat mexanizmi olaraq, aşıladığı dəyərlərin mahiyyətini müdrikcəsinə anlayırdı. Hər bir ailənin sevilən verilişi olan "Bulaq" belə milli verilişlərin ilk qaranquşu oldu. Ulu Öndərin xeyir-duası ilə fəaliyyətə başlayan bu radiotoplu ilk dəfə Azərbaycan efirinə şifahi nitqin ən koloritli, milli, etnoqrafik və xalq düşüncə tərzi ilə cilalanmış nəfəsini gətirdi. Respublikanın ən ucqar nöqtələrinə nüfuz edib, xalq düşüncəsini müasir dünyamızın tələbləri baxımından, üzə çıxaran bu proqramın beynəlxalq poçtu yarandı. Belə ki, radio dalğaları ilə Şərqə yayımlanan "Bulaq" xaricdəki soydaşlarımızın arzu və istəklərini vahid dil, düşüncə və ortaq Vətən duyğularını ifadə edən məktubları efirdə səsləndirildi. Ulu Öndərin göstəriş və məsləhəti əsasında daha sonra "Ozan" teletoplusu yaradıldı və tezliklə ümumxalq məhəbbəti qazandı. Ümummilli Lider Heydər Əliyev radioda və ekranda elmin və mədəniyyətin nailiyyətlərinin təbliğinə çox böyük əhəmiyyət verirdi. O, Azərbaycan teleradiosu ilə xalqa çatdırılan informasiyanın miqyasını və təsirliliyini yüksək qiymətləndirirdi.

Radionun yaxın keçmişinə yazılan tarixi də Onun prinsipial mövqedən çıxış etdiyini bir daha göstərir. 1988-ci ildə başlanan Dağlıq Qarabağ münaqişəsi zamanı radio Azərbaycan xalqının maraqlarından çıxış etdi. Bu, 1990-cı ilin yanvarında özünü daha da qabarıq şəkildə göstərdi. Sovet imperiyası təkcə xalqı deyil, həm də Azərbaycan radiosunu susdurmağa cəhd edir. Mənbələrdə yazılır:" ...Televiziyanın enerji blokunu partladıb sıradan çıxarmaqla yanaşı, radionun əməkdaşları da efirdən uzaqlaşdırılır. Radioda hərbi senzor fəaliyyət göstərirdi. Matəm içində olan ölkəmizə komendantın həqiqətdən tamamilə uzaq və iftira dolu məlumatlar ötürülürdü. Lakin həmin faciəli günlərdə Azərbaycan radiosunun xaricə yayım redaksiyası 20 Yanvar faciəsinin baş verməsini bütün təfərrüatı ilə dünyaya çatdıra bildi".

Dövlət müstəqilliyinin əldə edilməsi radionun qarşısında duran vəzifələri kökündən dəyişdirdi. Radioda cəmiyyətlə sıx və açıq ünsiyyətə girmək meyillərini gücləndirən proqramlara üstünlük verildi. Qarabağ uğrunda erməni işğalçılarına qarşı savaşın başlanılması ilə radio hər gün Müdafiə Nazirliyinin məlumatlarını yayırdı. Dinləyicilərdə vətənpərvər hissləri gücləndirən "Açıq-aşkar", "Xudafərin", "Sözün düzü", "Baxış bucağı", "Dünya", "Pillə", "Çevrə", "Radio-atmaca", "Molla Nəsrəddin", "Yol", "Yuva", "Vaxt", "Dan yeri" kimi verilişlər hazırlanır və hərbi marşlar səsləndirilirdi. Azərbaycanın işğal olunmuş torpaqları, torpağın bölünməzliyi uğrunda canını sipər edən vətən oğullarının mübarizliyi və s. kimi fikirləri daim bizlərə çatdıran radiomuz qələbə sorağını da, Şuşada və Qarabağda yaşayacağımız zəfər sevincini də bizə çatdırdı. 44 günlük Vətən müharibəsindən xəbərləri Azərbaycan televiziyası, radiosundan aldıq. Azərbaycan radiosu xoş müjdələrlə bizləri sevindirdi.

### "KAĞIZSIZ VƏ MƏSAFƏSİZ QƏZET"

İnformasiya texnologiyalarının sürətlə inkişaf etməsi istənilən sahədə, o cümlədən, Azərbaycan radiosunda da texnoloji, istehsalat və yaradıcılıq dəyişikliklərinin həyata keçirilməsini labüd edir. 1991-ci ildə Dövlət Televiziya və Radio Verilişləri Komitəsi şirkətə çevrildi. 2005-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin bazasında "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti yaradıldı. Bu gün radio vasitəsilə yayımlanan verilişlərin miqyası geniş və auditoriyası çoxdur. Hal-hazırda Azərbaycan Dövlət Teleradio Şirkətinin tərkibinə daxil olan Azərbaycan Dövlət Radiosu müxtəlif məzmunlu proqramlarla dinləyicilərini görüşünə gəlir. İctimai-siyasi proqramlar, ədəbiyyat və incəsənət, baş proqramlar direksiyası, musiqi verilişləri, təhsil və elmi-kütləvi proqramlar, xalq yaradıcılığı, gənclik və idman, uşaq verilişləri və s.

Müstəqillik dövründə yayımlanan özəl radio kanalları, onların FM dalğasında fəaliyyətə başlaması Azərbaycan radiosu ənənələrindən bəhrələniblər. Özəl radio kanalları çeviklik və proqram rəngarəngliyi nümayiş etdirsələr də, Azərbaycan radiosu kimi ədəbi dilimizin qorunmasına və saflığına xidmət etməsinə diqqət ayıra bilmirlər. Cəmiyyətin idarə olunmasında ən sərfəli vasitə kimi qəbul olunan "kağızsız və məsafəsiz qəzet" - teleradio bu gün həyatımızın bir parçasına çevrilib. Bu gün öz sözünü deyə bilən, öz fərqli dəsti -xətti ilə seçilən, ən güclü təbliğat sisteminə çevrilən radiomuz 97 il, televiziyamız isə 67 ildir ki, Azərbaycan tamaşaçıları ilə yol gəlir. Bu yol hələ neçə-neçə onillikləri əhatə edəcək, xalqın milli tarixi, gələcəyi, Azərbaycanın dinamik inkişafı, uğurları və beynəlxalq mövqeyi ilə bağlı bizə çox xəbərləri çatdıracaq.

***Nəzakət ƏLƏDDİNQIZI***

# 8 noyabr "8 may qara tarix"i yer üzündən sildi

## PREZİDENT İLHAM ƏLİYEV: "Xoşbəxt adamam ki, Ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik"




Bu gün xalqımız Azərbaycan Prezidenti, Ali Baş Komandan Cənab İlham Əliyevin qətiyyəti sayəsində çoxəsrlik tariximizin üçüncü ildir ki, Zəfər Gününü qürurla qeyd etməyə hazırlaşır. 8 noyabr 2020-ci il - Qarabağa qovuşduğumuz tarixinin üçüncü ilini - Böyük Qələbə, Şanlı tariximizə daxil olan Zəfər gününü, Qarabağ münaqişəsinə xalqımızın zəfəri ilə NİDA! qoyduğu günü qeyd edir. Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin Qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi, düşmən üzərində tarixi Zəfər çaldı. Müzəffər Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi altında cəmi 44 günə mümkünsüzü mümkün etdi! Ermənistanın hərbi kaputilyasiyasına nail olduq! Bəşəriyyətə haqqın, ədalətin böyük dövlətlərin tapdağından qurtara biləcək bir dövlətin - Azərbaycanın var olduğunu sübut etdik. Bu ədaləti 44 gün ərzində yazan Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları, bütün Türkiyə xalqı bir yumruq kimi birləşərək təkcə Ermənistanın yox, bütövlükdə haqsız güclərin üstünə getdi və sübut etdi ki, haqq yolunda, ədalətin, ərazi bütövlüyümüzün bərpası uğurunda vuruşuruq. 10 noyabrda Müzəffər Azərbaycan Ordusu cəmi 44 günə hərbi yolla 30 il düşmən torpağında inləyən vətən torpaqlarını işğaldan azad etdi. 44 gündə müzəffər Azərbaycan Ordusu dünyaya sübut etdi ki, döyüş meydanında zəfəri tanklarla, toplarla deyil, ağılla, zəkayla və bir də insan zehninin ən son nailiyyəti olan PUA-larla qazanmaq olar.Qalib Liderimiz Şuşadan xalqa müraciətində bildirdi ki, Şuşanın azad edilməsi dünya hərb tarixində xüsusi yer tutacaq.

### ŞUŞANIN GÖTÜRÜLMƏSİ ÇOX BÖYÜK PEŞƏKARLIQ, CƏSARƏT TƏLƏB EDƏN ƏMƏLİYYAT İDİ

"Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaq. Çünki bu əməliyyatı bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək yalnız yüngül silahlarla silahlanmış şəkildə azad ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı qələbəmizdir",- deyən Ali Baş Komandan bir daha vurğuladı ki, Azərbaycan əsgəri əsl qəhrəmanlıq, mərdlik, şücaət, rəşadət nümunəsi göstərdi. Düşmənin 30 il ərzində qurduğu, milyonlarla vəsait sərf etdiyi nəhəng istehkamlar qısa müddətdə darmadağın edildi, müzəffər ordumuzun tətbiq etdiyi savaş strategiyası müasir hərb tarixinə yeni örnək oldu. Belə vəziyyətdə Ermənistanın qarşısında yalnız iki yoldan birini seçmək qalırdı. Ya Ermənistan ordusunun son tör-töküntüləri də döyüş meydanında son nəfərinə qədər məhv ediləcəkdi, ya da "ağ bayraq" qaldırıb, biabırçı hərbi məğlubiyyətini etiraf edəcəkdi. Paşinyan hakimiyyəti reallığı nəhayət ki, qəbul etdi və noyabrın 10-da Ermənistan "ağ bayraq" qaldırdı, kapitulyasiya bəyannaməsini imzaladı. Beləliklə də

### AZƏRBAYCAN ORDUSU NƏİNKİ DÜŞMƏNİ DİZ ÇÖKDÜRDÜ, ONLARIN 30 İL QEYD ETDİKLƏRİ İŞĞAL ""BAYRAMLARINI - 8 MAY GÜNÜNÜ" TARİXDƏN SİLDİ

30 il gözlədiyimiz o möhtəşəm tarixə şahidlik etmək zamanı yetişdi! zərbaycan ordusu nəinki düşməni diz çökdürərək onların 30 il qeyd etdikləri işğal "bayram"larını - 8 may gününü" tarixdən sildi. Müzəffər Ali Baş Komandan əsl Sərkərdəlik, siyasi iradə nümayiş etdirərək bizi həsrətində olduğumuz yurd yerlərimizə, tarixi ərazilərimizə qovuşdurdu. 30 ildən sonra 8 may tarixini Şuşanın işğal edildiyi gün kimi yox, işğaldan azad olunan, tikilən, qurulan və Azərbaycanın mədəniyyət paytaxtı kimi qarşılayırıq. Çünki Azərbaycan hərbçiləri bir gecədə Şuşa qalasını, sıldırımlı qayaları, aşılmaz dağları fəth etməklə ordumuzun hansı potensialda olduğunu, Vətən, torpaq anlayışının qəhrəman əsgərlərimiz, xalqımız üçün nə qədər böyük məna kəsb etdiyini bir daha sübut etmiş oldu. Təsadüfi deyil ki, Şuşaya qədər işğaldan azad edilən ərazilərdən qaçan, itkilər verərək geri çəkilən erməni hərbçiləri haqqında yaradılan mif Şuşada birdəfəlik darmadağın edildi. Və 1992-ci il 8 mayda itirdiyimiz Şuşa 30 il sonra 2020-ci il 8 noyabrda Ali Baş Komandanımızın rəhbərliyi hər günü bir tarixi qələbə olan 44 gün davam edən İkinci Vətən Müharibəsində düşmənə "Dəmir yumruğun" zərbəsi ilə qürur yerimiz - Şuşamız azad edildi! Azərbaycanın 28 illik Şuşa yarası sağaldı! Bu gün Azərbaycan bayrağı Şuşada dalğalanır.



Və bu gün Ali Baş Komandan Şəhidlər xiyabanından xalqa müraciəti tarixi müraciət olaraq qalacaq, çünki bu müraciətlə Şuşanın azad olunması müjdəsini verərək ulu öndərin vəsiyyətinin yerinə yetirməsini qürurla qeyd etdi: "Xoşbəxt adamam ki, Ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları! Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!".

Bəli, bu gün əziz Şuşamız azaddır. Orada şanlı bayrağımız qürurla dalğalanır. Xalq olaraq fəxrlə artıq üçüncü ildir ki, 30 il sonra 8 noyabr Zəfər Günümüzü qürurla, sevinclə qeyd edirik. Bir daha Zəfər Günün mübarək, Azərbaycan xalqı, bütün türk dünyası! Zəfər Günün mübarək, Azərbaycan! Qarabağ Azərbaycandır!

***RƏFİQƏ KAMALQIZI***

# "9 noyabr - Dövlət Bayrağı Gününün müstəsna əhəmiyyəti var"

*MÜNASİBƏT*



"Bu gün işğaldan azad edilmiş hər bir rayonumuzda, Ermənistanla şərti sərhəddimizdə, tarixi Xudafərin körpüsündə dalğanan üçrəngli bayrağımız qürur mənbəyimizdir". Bunu SİA-ya açıqlamasında "Həftə İçi" qəzetinin baş redaktoru Sevinc Seyidova deyib. Onun sözlərinə görə, bu bayrağın Ağdamda, Laçında, Şuşada, Xankəndində daima qürurla dalğalanması üçün minlərlə igid oğullarımız şəhidlik zirvəsində ucalıblar: "Üçrəngli, ay-ulduzlu bu bayraq onların bizə əmanətidir. Borcumuzdur ki, bizlər də qanımız, canımız hesabına əmanəti göz bəbəyi kimi qoruyaraq gələcək nəsillərə təhvil verək. Bu müqəddəs missiyanın daim xatırlanması, bayrağın mahiyyətinin gənc nəsil tərəfindən dərk edilməsi üçün 9 noyabr - Dövlət Bayrağı Gününün müstəsna əhəmiyyəti var. Təbii ki, dövlət rəmzlərimizin ən şanlısı olan üçrəngli bayraq haqqında məlumatlar, ona sevginin aşılanması hər gün, hər zaman aparılmalıdır. Lakin məxsusi bir gündə bu missiyanın dövlət və cəmiyyət olaraq hamılıqla birlikdə yerinə yetirilməsi ölkə vətəndaşlarının yaddaşına, hafizəsinə dərin iz buraxır. Mətbuat olaraq bizlər də Azərbaycan bayrağına olan diqqət və sayqımızı daim göstərməli, bu missiya üçün əlimizdən gələni etməliyik".

***Gülyana***

# SƏFİR: "Türkiyə 40 ildir ki, terror təşkilatı ilə mübarizə aparır"



"Türkiyə 40 ildir ki, terror təşkilatı ilə mübarizə aparır. Bu baxımdan Türkiyə həm terrorla mübarizədə, həm də mina təmizləmə işində kifayət qədər təcrübəlidir". SİA xəbər verir ki, bunu Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı noyabrın 4-də Milli Məclisdə "Mina təhlükəsi ilə mübarizə - partlayıcı sursatların ekosistemə təsiri" mövzusunda keçirilən ictimai dinləmədə deyib.

"Biz beynəlxalq təşkilatlarla mina problemi ilə mübarizə məsələsində Azərbaycana dəstək verməyə çağırırıq. Bildirim ki, 44 günlük Vətən müharibəsindən sonra Türkiyə Azərbaycana mina təmizləmə işlərində öz dəstəyini göstərir və bu dəstək son mina bu torpaqlardan təmizlənənədək davam edəcək", - o qeyd edib.

# Dələduzluq, yoxsa küçə mədəniyyəti?

**Bilirik ki, mədəni insanlarla yanaşı, mədəniyyətsiz insanlara hər yerdə rast gəlinir. Bu kimi insanlar sizin rəhbəriniz, qohumunuz, müdiriniz, əməkdaşınız və yaxud tabeçiliyinizdə olan işçilər ola bilər. Bəs bu insanlar hansı xüsusiyyətlərə sahibdir? Onlarla necə mübarizə aparmalıyıq?**
SİA mövzu ilə bağlı araşdırma aparıb.

## Mədəni insan hansı xüsusiyyətlərə sahib olmalıdır?

Mədəni insan o şəxsdir ki:
- başqa insanların şəxsi fikirlərinə və həyatına müdaxilə etmir. Bu, hətta onun ən yaxını olsa belə, müəyyən sərhədləri gözləyərək yerini bilir;
- sadə insanlara yüksək vəzifələrdə olanlardan daha çox, yaxud ən az onlar qədər hörmət edir. Günümüzdə yüksək vəzifə



sahibinə yaltaqlanıb, kasıbı əzən, ona ağlına gələn hər sözü deyənlər az deyil;
- özü ilə yanaşı qarşısındakına da hörmət edir;
- heç kimə şəxsi sual vermir. İnsanlar anlamalıdır ki, başqasına verdiyi şəxsi sualın cavabı onu maraqlandırmamalıdır. Adı üstündə bu məsələ şəxsidir;
- hər suala birdən çox cavab verir. Ona verilən sualları yolaverdi yox, ətraflı şəkildə təmkinlə cavablayır;
- problemlərini danışaraq həll edir. Belə insanlar yersiz dava və münaqişədən çəkinir;
- insanlara xarici görünüşünə görə dəyər vermir. İnsanları ruhuna və xarakterinə görə sevirlər;
- heç kimdən heç nə ummur. Qarşılıq gözləmədən yaxşılıq edir;
- doğru danışmağı və düzgünlüyü qarşısına məqsəd qoyur;
- sıra mədəniyyətini gözləməyi bacarır;
- səhvi olduğu halda üzr istəməkdən çəkinmir;
- ondan fərqli düşünən insanları qınamır;
- avtomobil idarə edərkən yersiz siqnal siqnal çalmaqdan çəkinir;
- heç kimi dininə və irqinə görə tənqid etmir.

## Bəs, mədəniyyətsiz insanlar kimlərdir?

- yerə zibil atanlar: Son zamanlar Bakının mərkəzi, eləcə də digər daxili yollarının kənarlarının zibillənməsi halı artıb. Ətraf mühitin qorunulması ilə bağlı dövlət tərəfindən bir sıra tədbirlər görülsə də, təəssüflər olsun ki, bəzi vətəndaşlarımız istər parklarda, istərsə də dənizdə və digər yerlərdə ətrafa tullantılar ataraq, ərazini zibilləyirlər.

Ölkə ərazisində ətraf mühiti çirkləndirənlərə İnzibati Xətalar Məcəlləsi üzrə cərimələr tətbiq olunur. Bura küçəni, su hövzələrini, ictimai yerləri zibilləmək, eləcə də ətraf mühitə müxtəlif növ ziyan vurmaq aiddir.

Ərazinin zibillənməsi halları ilə bağlı İnzibati Xətalar Məcəlləsinin 266.3-cü (Məişət tullantılarının tutumlardan (urnalardan) kənar yerlərə atılmasına görə) maddəsinin tələbini pozduğuna görə inzibati qaydada protokol tərtib edilir. Məcəlləyə görə, məişət tullantılarını zibil qutularından kənara atılması hallarına görə 50 manat cərimə nəzərdə tutulub. Qutular qanunla müəyyən edilmiş məsafədən uzaq yerləşdirilibsə, vəzifəli şəxslər 500 manat, hüquqi şəxslər 1000 manat cərimə edilə bilər.

Zibilin yandırılaraq, atmosferə zərərli maddələrin atılması halında 8500 manatadək cərimə tətbiq edilə bilər. İctimai nəqliyyatdan istifadə zamanı da tullantılarla yanlış davranışa görə cərimələr nəzərdə tutulur.

- Magistral yolları zibilləyən sürücülər 40 manat, sərnişinlər isə 30 manat cərimə edilir. Meşələri zibilləndirən və çirkab suları ilə çirkləndirilməsi halında fiziki şəxslər üçün 600-1000 manat, vəzifəli şəxslərə 2000-3000 manat, hüquqi şəxslərə 6000-8000 manat cərimə nəzərdə tutulur".

- Yüksək səslə danışanlar

İctimai nəqliyyatda yüksək səslə danışmaq, gülmək, insanlara qarşı kobudluq etmək qəbuledilməz və etik qaydaların kobudcasına pozulmasıdır. Həmçinin bəzi vətəndaşların istənilən yerdə avtobus sürücüsün-



dən maşını saxlamağı tələb etməsi də yol mədəniyyətinə zidd hərəkətdir.

Avropa və dünyanın bir çox ölkələrində kəskin şəkildə, qanun formasında ictimai davranış qaydalarını pozan şəxslərə qarşı cəzalar tətbiq edilir. Məhz bu cür sərt cəza və ictiami qınağın tətbiq edildiyi ölkələrdə nəinki cəmiyyət içərisində, öz evlərində belə insanlar ətrafdakıların narahatlığına səbəb olacaq hərəkətlərdən qaçırlar.

- Sosialda və realda söyüş söyənlər

Cinayət Məcəlləsinin 147-ci və 148-ci maddələri böhtan və təhqirlə bağlı məsuliyyətləri müəyyən edir. Həmçinin, Konstitusiyada birbaşa müəyyən edilib ki, hər bir şəxsin şərəf və ləyaqətinin toxunulmazlığı hüququ var. Kiminsə şərəf və ya ləyaqətinin pozulmasına, alçaldılmasına, qeyri-insani rəftara görə cəzalar müəyyənləşdirilib. Sosial şəbəkələrdə söyüş söymək də təhqir hesab edilir. Mövcud qanunvericiliyə əsasən, təhqirə görə birbaşa məhkəməyə müraciət olunur. Təhqirə məruz qaldığını bildirən şəxs xüsusi ititham qaydasında məhkəməyə müraciət edib sosial şəbəkədə istifadəçi profili məlum olan şəxsin cinayət məsuliyyətinə xüsusi ittiham qaydasında cəlb edilməsini tələb edə bilər.

Cinayət Məcəlləsinin 148-1-ci maddəsi məhz saxta profillərlə bağlı məsələni nəzərdə tutur. Belə ki, əgər istifadəçinin şəxsiyyətini müəyyən etmək mümkün olmursa, şikayətçi ərazi üzrə ictimai-xüsusi ittiham qaydasında prokurorluğa müraciət etməlidir. Prokurorluq orqanı istifadəçinin kimliyinin müəyyən edilməsi məqsədilə araşdırma aparır, müvafiq İP ünvanları müəyyən edilir və saxta profildən istifadə edərək təhqir edən şəxsin kimliyi müəyyən edilir. Bundan sonra həmin şəxsin prokurorluq tərəfindən cinayət məsuliyyətinə cəlb edilməsi məsələsi həll edilir.

Küçədə və digər yerlərdə söyüş söyməklə müşayiət olunan nalayiq hərəkətlər ictimai asayişin pozulması və digər əsaslarla olarsa, bu zaman Cinayət Məcəlləsinin 221-ci, yəni xuliqanlıq maddəsinin də tərkibi yarana bilər. Lakin söyüş internetdə, sosial şəbəkələrdə ifadə edilibsə, bu birbaşa təhqir hesab edilir. Qanunvericiliyə əsasən, sosial şəbəkələrdə hər hansı fərd və ya toplumun, eləcə də dövlət qurumunun təhqir edilməsinə görə nəzərdə tutulmuş hüquqi məsuliyyətdə fərq yoxdur.
- qarşısındakı insanı dinləməyənlər;
- başqalarını yersiz tənqid edənlər;
- sıra mədəniyyətini gözləməyənlər;
- xoş üzdən sui-istifadə edənlər;
- özündən böyüklərə nəzakətsiz davrananlar;
- ona aid olmayan söhbətə müdaxilə edənlər;
- biri telefonla danışarkən yanında oturub israrla dinləyənlər;
- başqa insanların ailə işlərinə müdaxilə edənlər.

## Çeynədiyi saqqızı yerə atanlar

2012-ci ildə edilən araşdırmaya görə, qardaş Türkiyədə aylıq saqqız istehlakı 740 ton ətrafındadır. Burada saqqız çeynəyən 43 milyon insan var.

Ətraf mühitin çirklənməsi nəzərə alınmadan çeynənilib atılan saqqız quşların tələf olmasına səbəb olur. Quşlar saqqızı çörək hesab edib yeməyə çalışdıqda, saqqız dimdiklərinə yapışır və dimdik qapanır. Nəticədə, bir daha heç nə yeyib içə bilmirlər. Onlar bu səbəbdən aclıqdan və susuzluq-



dan ölürlər. Son illərdə belə səbəblərdən, hətta bəzi quşların nəsli kəsilib.

Qurani-Kərim kainatdakı hər şeyin Allah tərəfindən insanın ixtiyarına verildiyini izah edərək, ondan varlıq aləmini qorumasını istəmişdir. O bildirib ki, quruda və dənizdə fitnə-fəsad insanların öz əlləri ilə etdiklərinə görə baş verəcək. Bu səbəbdən İslam yer üzünü fəsad etməyi, yəni təbiəti korlamağı qadağan edir. Qurani-Kərimdə: "Yer həyat üçün yararlı olduqdan sonra onun təbii tarazlığını pozmayın" əmr olunur. Təbii tarazlığın pozulması əhatəsinə düşən məsələlərdən ən mühümü suyun, bitkilərin, havanın və torpağın çirklənməsidir. İslam bunu qəti şəkildə qadağan edir. Şübhəsiz ki, bununla bütün canlıları qoruyur ki, bu da kainatdakı hər bir canlı və cansız varlığın haqqıdır. Hər kəsin haqqına hörmət etmək, hər kəsə haqqını vermək müsəlman üçün vacibdir.

Bununla yanaşı, yerə atılan və günəşin istisi ilə əriyən saqqız bir çox vətəndaşın ayaqqabısına yapışaraq ətraf mühitin çirklənməsinə səbəb olur. Bu məsələdə hər kəs həssas olmalıdır.

Hər kəs saqqızını çeynədikdən sonra zibil qutusuna atmalıdır ki, belə problemlər yaratmasın. Bu sadə görünən vəziyyət əslində böyük bir mədəniyyəti təmsil edir.

## Söyüş söymək

İstifadə etdiyiniz sözlər sizin kim olduğunuzu və danışıq tərziniz sizin necə bir insan olduğunuzu göstərir. Söyüş başqalarının sizin haqqınızda mənfi düşünməsinə səbəb ola bilər.

## Bəs, nə edə bilərik?

*Qarşına bir məqsəd qoy*

Bir ay və ya daha az müddət söyüşlərdən istifadə etməməyə çalışın. Nə qədər irəliləyiş əldə etdiyinizi görmək üçün qrafikdən və ya təqvimdən istifadə edə bilərsiniz. Ancaq qərarınıza sadiq qalmaq üçün başqa şeylər etməlisiniz. Misal üçün: Beyninizi söyüşlərlə dolduran əyləncələrdən uzaq durun.

## Yetkin olduğunuzu göstərin

Bəziləri böyüdüklərini başqalarına sübut etmək üçün nalayiq sözlər işlədirlər. Amma bu, əslində, onların yetişmədiyini göstərir.

***Ayşən Vəli***

ARAŞDIRMA

# Yeni Azərbaycan Partiyası: 31 il əvvəl necə yarandı

Yeni Azərbaycan Partiyasının keçdiyi 31 illik yola nəzər salarkən, eyni zamanda xalqın 31 illik tarixi də göz önünə gəlir. O tarix ki, 31 ilin o başında yenicə əldə olunan müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə dayanan, səriştəsiz hakimiyyətin ümidinə qalan xalq, iqtisadiyyatı çökmüş Azərbaycan dayanırdı. Ermənilərin azərbaycanlılara qarşı işğalçılıq siyasəti, torpaqlarının 20 faizdən çoxunu itirən xalq, soydaşlarımızın məcburi şəkildə yurdlarından qovulması dayanırdı.

31 ilin bu başında isə müstəqil, inkişaf etmiş ölkə, düşməndən bütün torpaqlarını azad edib Böyük Zəfər qazanan xalq dayanır. Tarix aydın şəkildə göstərir ki, ötən 31 il xalqın həyatında əsaslı dönüşlərə zəmin yaradıb. Bütün bunlara isə təbii ki, 31 əvvəl Yeni Azərbaycan Partiyasının yaradılması, Ümummilli Liderimiz Heydər Əliyevin partiyanın sədri seçilməsi ilə nail olunub. Əks təqdirdə isə 31 il əvvəlki Azərbaycan parçalana, müstəqilliyimizin taleyi isə 1918-ci ildə əldə etdiyimiz, lakin cəmi 23 ay yaşaya bilən müstəqilliyə bənzəyə bilərdi. Çünki ölkədə vəziyyət olduqca gərgin idi.

### Ziyalıların atdığı addım xalqı xilas etdi

Azərbaycanda ümumi vəziyyətin nə qədər təhlükəli olduğunu cəmiyyətin sağlam



idi. 20 Yanvar faciəsinin ertəsi günü Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək sovet hökumətini, Kommunist Partiyasını - uzun illər xidmət etdiyi partiyanı ittiham etmişdir, bu dəhşətli cinayəti qınamışdır. Bütün bunlar və eyni zamanda, Naxçıvanda çalışdığı dövrdə müstəqilliyə doğru atılan addımlar, o cümlədən Azərbaycan Demokratik Respublikasının Dövlət Bayrağının Naxçıvanda rəsmi bayraq kimi təsis edilməsi və digər addımlar, həmçinin Naxçıvanın erməni işğalından qorunması xalqın ona inamını daha da artırırdı və bütün bu amillər nəticədə xalqımızın müdrikliyinə əsaslanaraq gələcəkdə Azərbaycanı böyük bəlalardan qurtara bilmişdir.

### Yeni Azərbaycan Partiyasının yaradılması Azərbaycanın xilası oldu

16 oktyabr tarixli müraciətə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri






qüvvələri, ziyalılar yaxşı dərk edirdilər. Amma hakimiyyət hər vəchlə buna mane olurdu. Onlar Ümummilli Lider Heydər Əliyevin təcrübəsindən nəinki bəhrələnmək istəmirdi, əksinə ona qarşı əsassız mübarizə aparırdı. Hətta yaş senzini ortaya atmışdılar ki, Heydər Əliyev seçkilərdə iştirak edə bilməsin.

Bütün bunlara rəğmən tanınmış ziyalılar Heydər Əliyevin hakimiyyətə qayıdışını olduqca zəruri hesab edirdilər. Respublikanın bütün əhalisi Ulu Öndərin hakimiyyətə gəlməsini istəyirdi. Çünki cəmiyyətdə Ona inam böyük idi. Bu səbəbdən də məhz Ulu Öndərə üz tutuldu.

Ölkənin ziyalı təbəqəsi anlayırdı ki, Azərbaycanı belə bir ağır vəziyyətdən xalqımızın ləyaqətli oğlu Heydər Əliyev kimi böyük dövlət xadimi, bütün dünyada tanınmış şəxsiyyət xilas edə bilər. Beləliklə hələ 1992-ci ilin sentyabr ayında Milli Elmlər Akademiyasının vitse-prezidenti Ziya Bünyadovun iş otağında gələcək Yeni Azərbaycan Partiyasının 15 ziyalıdan ibarət təşkilat komitəsi yaradılır. Bu barədə bizə həmin hadisələrin şahidi və iştirakçısı, YAP veteranı Ağabəy Əsgərov danışdı: Təşkilat komitəsinin müavinləri Murtuz Əsgərov, Ziya Bünyadov, Əli Nağıyev, Sirus Təbrizli, Rəfael Allahverdiyev və Lalə Hacıyeva idi. Üzvlər isə Ağabəy Əsgərov, Əli İnsanov, Səfiyar Musayev, Munis Bayramov, Fərəməz Maqsudov, Rizvan Vahabov, Məzdək Hüseynov və Minayə Əliyeva idi. Sədr isə təbii ki, Ulu Öndər Heydər Əliyevi seçmişdik.

Ağabəy Əsgərov 91-lərin müraciətinə qədər təşkilat komitəsinin bir neçə dəfə iclaslarının keçirildiyini, bu iclaslarda xalqın ümumi problemlərinin müzakirə olunduğunu, bunun üçün yollar axtarıldığını, təkliflər söyləndiyini bildirir.

Beləliklə, 31 il əvvəl, 1992-ci ilin sentyabrında yaradılan təşkilat komitəsi bütövlükdə bir xalqın xilası yolunda böyük bir missiyanı həyata keçirmişdir. Bu, Yeni Azərbaycan Partiyasının yaradılması və Ulu Öndər Heydər Əliyevi xalqın xilasına çağırış idi.

### "91-lər"in mühüm missiyası

Azərbaycan cəmiyyətinin öndə gedən bir qrup ziyalısı 16 oktyabr 1992-ci ildə "Səs" qəzeti vasitəsilə Ulu Öndər Heydər Əliyevə müraciət etdi. "91-lər"-in fəaliyyəti kimi tariximizə düşən bu hadisə çox önəmlidir. Çünki bu ziyalılar görürdülər ki, ölkədə separatçılıq baş alıb gedir, qanunsuz silahlı dəstələr insanlar üçün böyük təhlükəyə çevrilir, əhalinin həyat səviyyəsi də sürətlə aşağı düşür. Yəni, sözün əsl mənasında Vətən əldən gedirdi. Belə bir şəraitdə 91 ziyalı Heydər Əliyevə yeni bir partiyanın yaradılması və həmin partiyaya rəhbərlik etməsi ilə bağlı müraciət etdi.

Partiyanın yaradılmasında məqsəd demokratik yolla hakimiyyətə gəlib Vətəni xilas etmək idi. Xalqı görürdü ki, Heydər Əliyev Naxçıvanı məhv olmaqdan xilas etdi. Blokada şəraitində olan bir bölgədə insanlarla Heydər Əliyevin birliyi bütün çətinliklərə sinə gərdi. Bütövlükdə bütün xalqımız Heydər Əliyevi çox sevirdi. Çünki Ulu Öndər bütün həyatı boyu xalqına şərəflə xidmət etmişdi.

Beləliklə, o dövrdə "91-lər" çox mühüm missiyanı həyata keçirdi. Azərbaycanın xilası üçün xalqın ziyalı nümayəndələri Ümummilli Liderimizi tək çıxış yolu olaraq görürdülər. Çünki ona inanır və böyük ümid bəsləyirdilər. Onun birinci dəfə Azərbaycanda hakimiyyətdə olduğu dövrdə gördüyü işlər, dövlətimizin başçısının da vurğuladığı kimi, həmin dövrdə Qarabağda separatist qüvvələrin baş qaldıra bilməməsi bu inamı daha da möhkəmlətmişdi. Dövlət başçısının dediyi kimi: Heydər Əliyevə cəmiyyətdə inam çox yüksək səviyyədə idi. Bu inamın əsas səbəbləri o idi ki, Azərbaycanda işlədiyi dövrdə o həmişə xalqa xidmət edirdi, həmişə xalqın qayğıları ilə yaşayırdı, həmişə xalqla birlikdə idi, bir yerdə idi. Məhz onun rəhbərliyi altında Azərbaycan 1970-80-ci illərin əvvəllərində sovet məkanında ən geridə qalmış respublikadan ən qabaqcıl respublikaların birinə çevrilmişdir və bütün statistik göstəricilər bunu təsdiqləyir. Eyni zamanda, Azərbaycanda yaşayan vətəndaşların həyat səviyyəsi ildən-ilə yaxşılaşırdı, xüsusilə kənd təsərrüfatı ilə məşğul olan insanlar öz həyatını yenidən qura bilmişdilər.

...Heydər Əliyev bütün vəzifələrdən istefa verəndən iki həftə keçməmiş erməni separatçıları artıq Qarabağın Azərbaycandan ayrılıb Ermənistana birləşməsi ilə bağlı məsələ qaldırmışdılar. Yəni, bu amillər göstərir ki, Ulu Öndər pensiyada olanda da, xalqımız üçün ən faciəvi günlərdə də xalqla birlikdə Heydər Əliyev 24 oktyabr tarixdə cavab vermiş və təklifi qəbul etmişdir. Beləliklə, 21 noyabr 1992-ci il tarixində Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirilmiş, 550 nəfərin iştirak etdiyi konfransda Heydər Əliyev partiya sədri seçilmişdir.

Ölkəmizin ictimai-siyasi həyatında mühüm əhəmiyyət kəsb edən Yeni Azərbaycan Partiyasının 2022-ci ildə 30 illik yubileyi münasibətilə keçirilən tədbirdə dövlətimizin başçısının çıxışında əvvəldən sonadək Heydər Əliyev siyasi xətti, ideyaları, yolu ilə getməklə əldə olunan uğurlardan bəhs etməsi ilə ötən illərin şanlı tarixinin səhifələri yenidən bir-bir vərəqləndi.

Ümummilli Liderimizin Azərbaycana, xalqımıza, onun müstəqilliyinə bəslədiyi məhəbbət fonunda ərazi bütövlüyümüzün bərpası, ölkəmizin inkişafı üçün həyata keçirdiyi misilsiz xidmətlər bu gün öz bəhrəsini verib. Bunu hər bir vətəndaş görür və qürur duyur. Partiyanın yaranması tarixinə nəzər salan dövlət başçısının çıxışında da bu məqamlar öz əksini tapdı: Partiyamızın yaranması tarixi hadisə idi. O vaxt gənc Azərbaycan Respublikası çətin günlər yaşayırdı. Müstəqilliyimizin cəmi bir yaşı var idi və müstəqilliyimizin birinci ili çox ağır keçmişdir, bəzi hallarda xalqımız böyük faciələrlə üzləşmişdir. Belə bir vəziyyətdə Azərbaycanın görkəmli nümayəndələri, vətənpərvər insanlar, ölkənin gələcəyini düşünən insanlar ölkəmizin nicat yolunu Heydər Əliyevin simasında görürdülər və məhz buna görə Ulu Öndərə müraciət ünvanlamışdılar.

Bu müraciəti ünvanlayan məşhur "91-lər" öz tarixi missiyasını şərəflə yerinə yetirdilər. Çünki məhz bu müraciət əsasında, bu müraciətə cavab olaraq Yeni Azərbaycan Partiyasının təsis konfransı Naxçıvanda keçirilmişdir. Təsis konfransında ölkəmizin bütün bölgələrindən 500-dən çox nümayəndə iştirak edirdi və onların tarixi qərarları ölkəmizin yeni səhifəsinin açılmasına gətirib çıxardı.

Yeni Azərbaycan Partiyasının Naxçıvanda keçirilmiş birinci təsis konfransını tarixi hadisə adlandıran dövlətimizin başçısı deyirdi: Ulu Öndərin sədrliyi ilə keçirilmiş bu konfransdan sonra ölkəmizdə yeni siyasi qüvvə yaranmışdır. Yeni Azərbaycan Partiyası yarananda müxalifət partiyası kimi yaranmışdır və dövlətin ağır problemlərinin, yükünün bir hissəsini öz üzərinə götürmək böyük məsuliyyət tələb edən addım idi. Çünki o vaxt, bir daha demək istəyirəm, ölkədə gedən proseslər çox narahatedici idi və Azərbaycanın görkəmli nümayəndələrinin məhz Heydər Əliyevə müraciət etməsi bu zərurətdən doğurdu. Çünki ölkə artıq idarəolunmaz vəziyyətə düşmüşdü, bir il ərzində dövlətçiliyin əsasları qoyulmamışdı, demokratik inkişaf ləng gedirdi, əslində, geriyə addımlar atılırdı. Biz təkcə senzuranın tətbiq edilməsini yada salsaq, demək kifayətdir ki, o vaxt demokratik mühitdən söhbət gedə bilməzdi. Yeni Azərbaycan Partiyasının təsis konfransının məhz Naxçıvanda keçirilməsi də buna bağlı idi. O vaxt Bakıda bu konfransın keçirilməsinə icazə verilməmişdi. Yəni, demokratik dəyərlər elan olunsa da, Azərbaycan xalqı faktiki olaraq həyatda bunun əksini görürdü. Media azadlığı yox idi, iqtisadiyyat çox ağır vəziyyətdə idi, insanların sosial vəziyyəti gündən-günə ağırlaşırdı, yoxsulluq təxminən 90 faizə çatmışdı, sənaye istehsalı iflic vəziyyətdə idi. Bizim sənayemizin aparıcı sahəsi olan neft-qaz sənayesi də böyük tənəzzülə uğramışdı və faktiki olaraq ölkəmizdə elektrik enerjisi böhranı hökm sürürdü. Nizami ordu yaradılmamışdı, inflyasiya ikirəqəmlidən üçrəqəmliyə keçirdi. Yəni, budur 1992-ci ilin noyabr ayında ölkəmizdə yaranmış vəziyyət.






YAP-ın təsis konfransından yeddi ay keçəndən sonra Heydər Əliyevin xalqın tələbi ilə Bakıya dəvət edilməsi, parlamentin sədri seçilməsi, 11 ay keçəndən sonra - oktyabr ayında isə Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə tariximizin o qara səhifəsi bağlanmışdır. Və biz bağlanan o qara səhifədən sonra başlanan tariximizin parlaq səhifələri ilə bu gün fəxr edir, qürur duyuruq.

## Tarixin 1993-cü ildən açılan yeni səhifəsi

Bəli, 1993-cü ildən yuxarıda da vurğuladığımız kimi, tarixin qara səhifələri bağlandı və qarşımızda yeni bir səhifə açıldı. Bu səhifə Böyük Heydər Əliyevin dəst-xətti ilə yazılmağa başlandı. Elə bir səhifə ki, açılması ilə xalqın taleyini dəyişdi.

Ulu Öndərin mənəvi və siyasi varisi, daim Heydər Əliyev siyasətindən bəhrələnən və fəaliyyətini bu dahi insanın təcrübələrinə istinad etməklə quran dövlət başçısı cənab İlham Əliyev deyir: Biz Ulu Öndərin rəhbərliyi ilə çox ciddi iqtisadi islahatlara start verdik. İqtisadiyyatın bazar iqtisadiyyatı prinsipləri əsasında qurulması məhz o illərdə öz əksini tapmışdır. Azərbaycanın gələcəkdə dünyəvi dövlət kimi inkişafı məhz o illərdə təsbit edilmişdir. Bizim xarici siyasətimizlə milli maraqlar üzərində apardığımız işlər məhz o illərdə xalqa təqdim edilmiş və xalq tərəfindən dəstəklənmişdir. Bir çox başqa sahələrdə, o cümlədən ordu quruculuğu sahəsində atılan addımlar bir neçə ildən sonra imkan verdi ki, biz doğrudan da güclü və nizami ordu yaradaq. Bu gün bütün Azərbaycan xalqı Ordumuzla fəxr edir. Yəni, bu tarixi addımlar ölkəmizin uzunmüddətli strateji inkişaf modelini özündə ehtiva edirdi. Əlbəttə ki, bütün planlarımızı həyata keçirmək üçün bizim güclü maliyyə imkanlarımız olmalı idi. Yaxşı başa düşürdük ki, xarici sərmayələr gəlmədən buna nail olmaq mümkün deyil. Xarici sərmayələrin ölkəyə qoyulması üçün də ilk növbədə sabitlik olmalı idi və bu sabitlik yaradıldı. O ölkədə ki, 1991-1993-cü illərdə Azərbaycan xalqı faktiki olaraq sabitlik nədir bilmirdi. Qanunsuz silahlı birləşmələr meydan oxuyurdu, Bakı və digər şəhərlərin küçələrində əli avtomatlı insanlar faktiki olaraq hökmranlıq edirdi, kütləvi itaətsizlik hökm sürürdü. Belə bir vəziyyətdə sabitliyi yaratmaq ancaq Heydər Əliyevin nüfuzu, onun cəsarəti və xalqın ona olan inamı hesabına mümkün idi və xarici sərmayələr də ondan sonra dərhal gəlməyə başlamışdır. Məşhur "Əsrin kontraktı" və neft-qaz sahəsində ondan sonra aparılan işlər o vaxt güclü maliyyə zəmini yaratdı. O vaxt atılan addımlar və qəbul edilmiş qərarlar bu gün bizə imkan verir ki, müstəqil iqtisadi siyasət aparaq və beynəlxalq müstəvidə müstəqil ölkə kimi özümüzü təsdiqləyək.



SƏS

АЗӘРБАЈЧАН СИЗИН СӨЗҮНҮЗҮ КӨЗЛӘЈИР

(Һејдәр Әлијевә мүрачиәт)

Bəli, ötən 20 ilin hər saatında, hər anında Ulu Öndərimizin tapşırıq və tövsiyələrinin yerinə yetirildiyi görürük. Həm də çox yüksək səviyyədə. Bu tapşırıq və tövsiyələrin yerinə yetirilməsində bütün cəmiyyətimizin səfərbər olduğunu da görmək mümkün olub. Çünki Ulu Öndər Azərbaycan üçün nə qədər əzizdirsə, onun tapşırıq və tövsiyələrinin bu xalqın nümayəndələri tərəfindən yerinə yetirilməsi bir o qədər qürurvericidir. Biz bütün işlərdə həmişə dövlətimizin başçısının arxasında olmuşuq.

Prezident cənab İlham Əliyev Yeni Azərbaycan Partiyasının 30 illik yubileyi münasibətilə keçirilən tədbirdə bu barədə deyirdi: Yəni, 1993-2003-cü illərdə dövlətçiliyimizin çox möhkəm əsasları qoyuldu. Bu illəri sabitlik və inkişaf illəri kimi xarakterizə etmək olar. Əsas məsələ odur ki, bu siyasət davam etdirilməli idi. Azərbaycan xalqı 2003-cü ildə bir daha müdriklik göstərərək, məhz Ulu Öndərin şəxsiyyətinə olan hörməti ifadə edərək Heydər Əliyev siyasətinə səs verdi. Mən 2003-cü ildə xalqa söz vermişdim ki, bu yoldan dönməyəcəyəm. Son 19 ilin hadisələri onu göstərir ki, belə də oldu, Ulu Öndərin bütün tapşırıqları, bütün tövsiyələri yerinə yetirildi. O, öz siyasi vəsiyyətində demişdir ki, bir çox işlər görüldü, ancaq görə bilmədiyimiz işləri mənim davamçılarım görəcək, belə də oldu. Biz onun siyasi xəttini davam və inkişaf etdirərək güclü Azərbaycan dövləti qurduq ki, sözün əsl mənasında, hər bir azərbaycanlı bu dövlətlə fəxr edir. Biz iqtisadi islahatları dərinləşdirdik və son 19 ildə bu sahədə görülən işlər göz qabağındadır. Təkcə onu demək kifayətdir ki, 2003-cü ildən bu günə qədər iqtisadiyyatımız 3 dəfədən çox artmışdır. Bu il iqtisadiyyatımız rekord həddə çatacaq. İlin sonuna qədər gözlənilən proqnoz onu deyir ki, iqtisadiyyatımız 130 milyard manata çatacaq. Bu, rekord göstəricidir. Bizim uğurlu iqtisadi-maliyyə siyasətimiz nəticəsində xarici dövlət borcumuzu əhəmiyyətli dərəcədə aşağı sala bilmişik. Bu da həm bu gün üçün, həm gələcək nəsillər üçün böyük üstünlük təşkil edir. Bu gün ona görə ki, bizim kredit reytinqimiz yaxşılaşır. Gələcək nəsillər üçün ona görə ki, bu yük gələcək nəsillərin üzərinə düşməyəcək. Bir neçə il bundan əvvəl mənim göstərişimlə aparılan islahatlar nəticəsində bu ilin sonuna biz xarici borcumuzun ümumi daxili məhsuldakı payını 10 faizə qədər endirəcəyik. Əgər valyuta ehtiyatlarımızı götürsək, bizim valyuta ehtiyatlarımız xarici borcdan 8 dəfə çoxdur. Yəni, ancaq nadir ölkələr bu göstəricilərlə fəxr edə bilər.

Azərbaycan dövləti Ulu Öndərin vəsiyyəti əsasında milli-mənəvi dəyərlər üzərində qurulur, inkişaf edir

Azərbaycan xalqının özünəməxsus milli dəyərləri vardır ki, bu xalq hansı dövrdən, çətinliklərdən, müharibələrdən, ağrı-acılardan keçməsinə baxmayaraq həmin dəyərlərə sadiq qalmış, onları qoruya-qoruya nəsillərdən-nəsillərə təhvil vermişdir. Onlardan biri də xalqın birliyi, həmrəyliyidir ki, 44 günlük Vətən müharibəsində də bunun şahidi olduq. Ulu Öndərimiz də bu dəyərlərin hər zaman qorunmalı olduğunu tövsiyə edirdi.

Prezident cənab İlham Əliyev: Azərbaycan dövləti Ulu Öndərin bizə etdiyi vəsiyyət əsasında milli-mənəvi dəyərlər üzərində qurulur, inkişaf edir. Azərbaycan dəyərləri bizim üçün əsas dəyərlərdir. Biz hamımız bunun şahidiyik ki, gənc nəsil də milli ruhda böyüyür, gənc nəsil milli ənənələrə sadiqdir, azərbaycançılıq ideyalarına sadiqdir. Azərbaycanda bütün xalqlar bir ailə kimi yaşayır, bu da Ulu Öndərin siyasəti idi. Biz bu siyasəti uğurla davam etdirərək, zənginləşdirərək bu gün Azərbaycanda, hesab edirəm ki, dünya miqyasında nadir və təkrarolunmaz mühit yaratdıq. İkinci Qarabağ müharibəsi bunu bir daha göstərdi. Azərbaycanda yaşayan bütün xalqların nümayəndələrinin hamısı bir nəfər kimi ölümə getməyə hazır idi, ölümə gedirdi, azad edilmiş torpaqlarda bayrağımızı qaldırırdı. Bu, bizim böyük üstünlüyümüzdür. Bu istiqamətdə həm ölkə daxilində, həm beynəlxalq müstəvidə bu gün Azərbaycan nümunəvi davranış göstərir. Əsas məsələ odur ki, bütün Azərbaycan xalqı tərəfindən, Azərbaycanda yaşayan bütün etnik qruplar tərəfindən bu siyasət dəstəklənir. Bu, bizim gücümüzü artırır və bundan sonra gələcək nəsillər də məhz belə yaşamalıdır, əminəm ki, belə yaşayacaqlar.

Bu gün düşmənin torpaqlarımızdan təmizlənməsi, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, müstəqilliyimizin qorunması, ölkənin inkişafı və ölkə vətəndaşlarının rifah halı 31 il əvvəlki Azərbaycanla bugünkü Azərbaycanın fərqini ortaya qoyur. Bu fərqi ötən dövrdə yaradan isə Ulu Öndərimiz və Onun siyasi və mənəvi varisi, dövlətimizin başçısı, Ali Baş Komandan, müzəffər sərkərdə cənab İlham Əliyevdir.

31 il əvvəl Azərbaycanın çətin günləri fonunda yaradılan partiya bu gün inkişaf etmiş bir ölkənin aparıcı partiyasıdır.

***Mətanət Məmmədova***

# Xalq və ordu birliyinin təcəssümü

İşğal altında olan torpaqlarımızın düşməndən azad edilməsi və Azərbaycanın sərhədləri boyunca bayrağımızın dalğalanması bütün dövrlərdə dövlət siyasətinin əsas prioriteti və strateji hədəfi olub. Uzun illər ərzində danışıqlar masasında prinsipiallıq göstərən Azərbaycan, eyni zamanda, müstəqilliyimizin, suverenliyimizin qarantı olan Ordumuzun qüdrətinin, gücünün artırılması istiqamətində zəruri olan addımları atdı. Ordu quruculuğu dövlətimizin həyata keçirdiyi siyasətin əsas tərkib hissəsidir. Bütün illər ərzində dövlətin büdcə xərclərinin əsasını məhz hərbi xərclər təşkil edir. Ordunun döyüş qabiliyyəti möhkəmləndi, yüksəldi, müasir silah-sursat, texnika ilə təchiz edildi. Bir ölkədən asılı olmamaq üçün hərbi texnika bir çox mənbələrdən alınıb.Azərbaycanda hərbi sənaye kompleksinin yaradılması ölkənin hərbi qüdrətini artırdı. Ölkəmizdə son illərdə formalaşan və dinamik inkişaf edən hərbi sənaye hesabına müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar istehsal olunur. Azərbaycanda mindən çox hərbi təyinatlı məhsul istehsal edilir. Dünyanın aparıcı beynəlxalq sərgilərində Azərbaycanın hərbi məhsulları nümayiş olunur. Bu cür nailiyyətlər Azərbaycana öz ordusunu zəruri silah, sursat və texnika ilə təchiz etmək üçün əvəzsiz imkanlar yaradıb. Milli Ordunun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması, maddi-texniki təchizatının yaxşılaşdırılması daim diqqət mərkəzindədir. Azərbaycan öz zavodlarında istehsal etdiyi hərbi təyinatlı məhsullarla Ordumuzu əhəmiyyətli dərəcədə təchiz edə bilir. Hərbi məhsulların istehsalına dair bir sıra ölkələrlə müqavilələr imzalanaraq hərbi əməkdaşlıq əlaqələri genişləndirilib.Təbii ki, ölkəmizin bütün sahələrdə inkişafında iqtisadi tərəqqi əsas rol oynayır. Bütün regional layihələrdən təcrid olunmuş Ermənistandan fərqli olaraq Azərbaycan transmilli layihələr ilə regionda tamamilə yeni mənzərə yaratdı.

Azərbaycan regionun enerji xəritəsini, nəqliyyat xəritəsini yenidən tərtib etdi. Azərbaycanın təşəbbüsləri təkcə xalqımızın deyil, bir çox ölkələrin, o cümlədən region ölkələrinin maraqlarını təmin edir. Bunlarla da Azərbaycanın beynəlxalq nüfuzu gücləndi.İqtisadi müstəqilliyin təmin edilməsi ölkəmizin siyasi mövqeyinin möhkəmlənməsində əhəmiyyətli rol oynayır. Azərbaycan yeni dostlar, tərəfdaşlar qazandı. Ölkəmizin xarici siyasət uğurları davamlılığı ilə diqqətdə oldu. Bütün bunlar öz növbəsində Qarabağ münaqişəsinin həllində möhkəm hüquqi baza yaratdı.Artıq üç ildir tarixi Zəfərimizin sevincini yaşayırıq. Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan və inkişaf yoluna qədəm qoyan



Azərbaycan Silahlı Qüvvələri bu gün Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə öz xalqına Qələbəni bəxş etmiş müzəffər Orduya çevrildi. 27 sentyabr 2020-ci ildə Ermənistan silahlı qüvvələri Azərbaycan ərazilərini müxtəlif istiqamətlərdən raket atəşinə tutdu. Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhə boyu əks-hücum əməliyyatı başlaması barədə qərar verildi. Azərbaycan xalqı 30 ilə yaxın müddət ərzində Ali Baş Komandanın bu əmrini gözləyirdi. Müharibə dövründə xalq öz dəmir yumruğunu, birliyini və gücünü nümayiş etdirdi. On minlərlə insanın orduya könüllü kimi yazılması, eləcədə təxribatlar zamanı öz evlərinin tərk etməməsi faktı Azərbaycanda xalq-ordu birliyindən və orduya olan inamından xəbər verdi.

"Dəmir yumruq" əməliyyatının ilk saatlarında cəbhə xəttindən sevindirici xəbərlər gəlməyə başladı. 44 gün ərzində hər gün Azərbaycan Ordusu irəli gedirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, işğala son qoyulsun və tarixi ədalət zəfər çalsın. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi. Üç ildir ölçüyəgəlməz dərəcədə görülən işlər ölkəmizin malik olduğu imkanları təqdim etməklə yanaşı, tarixi Zəfərimizin reallıqlarının təqdimatı və qəbuludur. İşğaldan azad edilmiş ərazilərimiz, o cümlədən mədəniyyət paytaxtımız Şuşa diplomatik mərkəzə çevrilib. Azad edilmiş ərazilərə səfərləri ilə Prezident İlham Əliyev öz sevincini xalqı ilə bölüşməklə yanaşı, həmin əraziləri tez bir zamanda bərpa etmək, dirçəltmək əzmində olduğunu əyani nümayiş etdirir. Azad edilmiş şəhərlərimizdə, kəndlərimizdə artıq geniş inşaat işləri gedir. Azərbaycanın quruculuq missiyası başlanır. Bundan sonra Azərbaycan yalnız inkişaf edəcək. Azad edilmiş torpaqlara həyat qayıdır.

***Etibar Hacıyev***
***YAP Ağstafa rayon təşkilatının sədri***

# Vətən müharibəsi şəhidlərinin xatirəsi yad edildi

Noyabr ayının 4-də Biləsuvar rayonunun Aşağı Cürəli kəndində şəhid pilot Gözəlov Xalid Həsən oğlunun doğum günü ilə əlaqədar ata yurdu ziyarət olunmuşdur. Ziyarətdə YAP Biləsuvar rayon təşkilatının sədri Kamil Qurbanlı, partiya fəalları, şəhid valideynləri və ictimaiyyət nümayəndələri iştirak ediblər. Rayonun Ağayrı kəndində isə şəhid Nuri Xəyal Şakir oğlunun anım günü ilə əlaqədar ata yurdu ziyarət olunub. Ziyarətdə YAP Biləsuvar rayon təşkilatının sədr müavini, partiya fəalları, şəhid valideynləri və ictimaiyyət nümayəndələri iştirak ediblər. Ziyarət zamanı qəhrəman şəhidlərimizin şərəfli döyüş yolundan söz açılaraq xatirələri yad edilmiş, ruhlarına dualar oxunmuş və valideyinlərinə baş sağlığı verilmişdir.

Məlumat üçün qeyd edək ki, Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının baş leytenantı və hərbi pilotu olmuş şəhid Gözəlov Xalid Həsən oğlu 4 noyabr 1996-ci ildə Biləsuvar rayonunun Aşağı Cürəli kəndində anadan olub. 2012-2016-cı illərdə Milli Təhlükəsizlik Nazirliyinin Heydər Əliyev adına Akademiyasında ali təhsil alıb. Xalid Gözəlov akademiyanı bitirdikdən sonra 2016-cı ildə Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının sıralarında "leytenant" rütbəsi və pilot vəzifəsi ilə xidmətə başlayıb. 2019-cu ildə baş leytenant rütbəsi alıb. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda 27 sentyabr 2020-ci il tarixindən başlayan II Qarabağ müharibəsində iştirak edib, döyüşlərdə şücaət göstərib və Füzuli istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən şəhid


Gözəlov Xalid Həsən oğlu


Nuri Xəyal Şakir oğlu

Gözəlov Xalid Həsən oğlu ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir. Rayonun Aşağı Cürəli kəndində şəhidin ata yurdunun yerləşdiyi küçə onun adını daşıyır.

Azərbaycan Ordusunun MAHHXHQ olmuş şəhid Nuri Xəyal Şakir oğlu 12 fevral 1997-ci ildə Biləsuvar rayonunun Ağayrı kəndində anadan olmuşdur. Vüqar Rüstəmov adına Ağayrı kənd tam orta məktəbində təhsil almışdı. 2015-2016-cı illərdə müddətli həqiqi hərbi xidmətdə olmuşdu. Aprel döyüşlərinin iştirakçısı idi. 2017-ci ildən "N" saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət edirdi. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda 27 sentyabr 2020-ci il tarixindən başlayan Vətən müharibəsində iştirak etmiş, Cəbrayıl və Füzuli rayonları istiqamətində gedən döyüşlərdə vuruşmuş və düşmən hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olmuşdur. 4 noyabr 2020-ci il tarixində Biləsuvar rayonu Ağayrı kənd qəbirstanlığında dəfn olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən şəhid Nuri Xəyal Şakir oğlu ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

**Allah şəhidlərimizə rəhmət eləsin!**

# Qalib Azərbaycanın Zəfər tarifi!

## Prezident İlham Əliyev: "İkinci Qarabağ müharibəsinin dərsləri Ermənistan tərəfindən unudulmamalıdır"







Tariximizdən silinməyəcək 2020-ci ilin sentyabrın 27-si. Zəfər yürüşünün başlanması və qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində qazandığımız tarixi Qələbəmiz. Bir neçə gündən sonra Zəfər günümüzü qeyd edəcəyik. Artıq bu gün tarixiləşdi. Azərbaycanın 44 günlük müharibədə əldə etdiyi Zəfər dünyanın ən ədalətli qələbələrindəndir. Azərbaycanın bu zəfəri ilə əzəli torpaqları işğaldan azad edilib, bölgədə sülh, sabitlik və inkişaf yaranıb. 44 gün ərzində Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz bütün dünyaya öz qüdrətini, gücünü nümayiş etdirdi. Noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. Bu Zəfərin qazanılmasında üç ilə əvvəl tarixin bu günündə qızğın döyüşlər davam edirdi. Həmin günlər hamı Azərbaycanın şanlı və tarixi günlərinin şahidi olur, Prezidentimizin ətrafında bir yumruq kimi sıx birləşib ona öz dəstəklərini ifadə edirdilər. Azərbaycanın igid oğul və qızları həm ön cəbhədə, həm də arxa cəbhədə - informasiya müharibəsində düşmənin layiqli cavabını verirdilər. Vətən müharibənin 37-ci günü idi. Müzəffər Azərbaycan ordusu və onun Sərkərdəsi Cənab İlham Əliyev tariximizə yeni günlər yazmaqda davam edirdi. Artıq bir neçə kənd və qəsəbə, onlarla kəndlərimiz işğaldan azad olunmuşdur. Ordumuz tarix yazırdı, qəhrəmanlıq dastanını. Azərbaycan Ordusunun Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edilmişdi. Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəkliyi, Zəngilanda isə Bartaz, Sığırt, Şükürazat yüksəkləri və daha 5 adsız yüksəklik azad olunmuşdu.

### "BİZİM VƏZİFƏMİZ AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNÜ BƏRPA ETMƏK İDİ VƏ BİZ BU VƏZİFƏYƏ YAXINLAŞIRIQ"

2020-ci ilin 2 noyabrı - tarixin bu günü. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün "Twitter" hesabında bildirirdi: "Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq, Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ, Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! QarabağAzərbaycandır!" Hər gün insanlarımıza qələbə sevinci yaşadılırdı. "Bizim vəzifəmiz Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək idi və biz bu vəzifəyə yaxınlaşırıq. Biz ərazi bütövlüyünün bərpasını demək olar ki, 30 il idi gözləyirdik". Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliyanın "La Repubblica" qəzetinə müsahibə verərkən bildirmişdi. Ölkəmizin son illərdə dinamik inkişafı, silahlı qüvvələrin büdcəsinin artması və nəticə etibarilə ordumuzun güclənməsi nəticəsində tarixin bu günü Azərbaycan Vətən müharibəsində döyüş meydanında öz sözünü deyirdi. Azərbaycan Ordusu qarşıda duran bütün vəzifələri həll etməyə qadir olan bir ordudur və belə gücə malik nizami ordu işğal altındakı torpaqlarımızı erməni təcavüzkarlarından təmizləyərək, üçrəngli bayrağımızı Qarabağda dalğalandırmaqda davam edirdi. Azərbaycan işğalçı ölkəyə də, onun havadarlarına da, bütün ermənipərəstlərə də göstərirdi ki, güclü ordumuz işğalçı erməni qəsbkarlarını məhv edir. Düşmən tərəf ordumuzun qüdrətinə artıq bələd idi. Döyüş meydanından qaçırdılar. "Mən dəfələrlə demişəm ki, bizim 100 min döyüşçüsü olan ordumuz var, nizami ordu. Tam səfərbərlik elan etsək, bundan bir neçə dəfə çox adam səfərbər edə bilərik. Bizim müasir silahlarımız var. Mükəmməl texnologiyamız var və bizim çox yüksək döyüş ruhumuz var". -deyə Prezident İlham Əliyev qeyd etmişdi.

Amma təəssüflə də olsa bildirək ki, döyüş zamanı Ermənistan tərəfindən döyüşdə muzdlular var idi. "Bilirik ki, PKK oradadır. Bilirik ki, Yaxın Şərqdən bəzi terrorçular qondarma "Dağlıq Qarabağ ordusu"na qoşulublar" - deyə bildirən dövlət başçısı qeyd etmişdi ki, 30 il ərzində məğlubedilməz orduları olduqlarını bildirirdilər: "Onlar 30 il ərzində bizim əraziləri təkbaşına işğal etdiklərini deyirdilər, baxmayaraq ki, biz bunun doğru olmadığını bilirik. Beləliklə, biz onlara kimin kim olduğunu sübut etdik. Biz sübut etdik ki, onların "guya məğlubedilməz ordusu" əfsanədir, mifdir və bunu qəbul etmək onlar üçün çox ağrılıdır. Lakin onlar artıq öz məğlubiyyətlərini etiraf ediblər. Baş nazir Paşinyan Prezident Putinə məktub göndərərək, hərbi yardım xahiş edib. Bu, onların hərbi məğlubiyyətlərini və bizim qələbəmizi qəbul etmələri deməkdir".

44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusu işğal altında olan ərazilərimizi düşməndən azad edərək, tariximizə qələbə yazdı. Tarixi ədalət bərpa olundu və bu gün Azərbaycan torpaqlarında üçrəngli bayrağımız dalğalanır. Azərbaycan ordusunun əzmi, qətiyyəti, peşəkarlığı, vətənpərvərliyi təcavüzkar erməniləri torpaqlarımızdan təmizlədi. Bütün Azərbaycan xalqı Ali Baş Komandanın ətrafında bir yumruq olaraq birləşdi və xalq-iqtidar birliyi bu qələbənin qazanılmasında əsas amillərdən oldu. 2020-ci ilin noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə imzaladığı bəyanatla, 10 noyabr 2020-ci il tarixində Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu.

### DÖYÜŞ MEYDANINDA DEYİLƏN SÖZ

30 ilə yaxın idi ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan tarixi torpaqları Ermənistanın işğalı altında idi. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş və 1 milyondan çox azərbaycanlı məcburi köçkün, qaçqın vəziyyətində yaşayırdı. Artıq məcburi köçkünə dönmüş soydaşlarımızın üzərindən bu statusun götürülməsi hər kəsin sevincinə səbəb olub. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə məhəl qoymayan Ermənistan öz işğalçı siyasətini davam etdirsə də, Azərbaycanın güclü ordusu və Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi ilə torpaqlarımız işğaldan azad edildi. Ölkəmizin son illərdə dinamik inkişafı, silahlı qüvvələrin büdcəsinin artması və nəticə etibarilə ordumuzun güclənməsi nəticəsində Azərbaycan Vətən müharibəsində döyüş meydanında öz sözünü demiş oldu. Dövlət başçısının vurğuladığı kimi, bu gün Azərbaycan Ordusu dünyada 50 ən güclü ordu sırasındadır. "Biz bunu yorulmaz fəaliyyət nəticəsində əldə etmişik",- deyən dövlət başçısı Prezident kimi fəaliyyətində ordu quruculuğunun birinci yerdə olduğunu diqqətə çəkmişdi.

Bu müharibədə Azərbaycan mülki insanlarla müharibə aparmadı və Ermənistandan fərqli olaraq etnik təmizləmə həyata keçirmək niyyətində deyildi. Erməni propaqandası da bu məqamı gözləyirdi ki, Azərbaycanı etnik təmizləmə törətməkdə günahlandırsın. Amma Ermənistan tərəfindən mülkü əhaliyə dəfələrlə atəş açıldı. Mənfur düşmən tərəfindən 93 mülki şəxs atəşlə öldürüldü, 400-dən çox mülki şəxs yaralandı. Azərbaycan ordusu, əsgəri isə intiqamını döyüş meydanında aldı.

Ermənistan silahlı qüvvələri qısa müddət ərzində darmadağın edildi. Ermənistan və onun havadarları tərəfindən hərbi əməliyyatları dayandırmaq üçün Azərbaycana diplomatik və siyasi təzyiqlər göstərildi və Prezident İlham Əliyev qəti siyasi iradəsini nümayiş etdirdi, bütün təzyiqlərə baxmayaraq, mərdanə şəkildə sinə gərərək onları dəf etdi, öz prinsipial mövqeyindən dönmədi. Bu tarixi Qələbə Azərbaycan tarixinə məğlubedilməzlik kimi həkk olundu. Bu gün xalqımızın ona qələbə sevincini bizə yaşadan Ali Baş Komandana və Azərbaycan ordusuna ehtiramı sonsuzdur.

Bu uğurlu yolda neçə-neçə oğullarımız canlarından keçdi, şəhidlik zirvəsinə yüksəldilər. Onların qarşısında baş əyirik və Azərbaycan xalqı hər zaman onların xatirəsini yad edəcək. Belə oğulların keçdiyi yol mərdlik, ərənlik məktəbi olaraq öyrənilir və öyrəniləcəkdir. Dövlət başçısının Sərəncamı ilə Azərbaycan Respublikasında Anım Günü təsis edildi. Azərbaycan hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur.

Bu gün vətənpərvər ruhda tərbiyə almış Azərbaycan gənci hər qarış torpağın müdafiəsində dayanır. Gənclərin Vətən müharibəsi başlayanda könüllü olaraq orduya yazılması, vətən torpaqlarının müdafiəsinə qalxması vahid niyyət ətrafında birləşən gənclərimizin əzmkarlığını, vətənə sevgisini bir daha göstərmiş oldu. Öz iradəsi, gücü ilə. Bu gün də vətən oğulları Ali baş Komandanın əmrinə, vətənin müdafiəsinə hər an hazırdırlar. Bu gün Azərbaycan qalib dövlətdir. Torpaqlarını işğaldan azad edilən qalib xalqdır. Əlbəttə ki, tarixi qələbəni bəzə yaşadan Azərbaycan Prezidenti İlham Əliyevdir.

### "BÜTÜN SİLAHLI QÜVVƏLƏRİMİZİN PEŞƏKARLIĞI, TEXNİKİ İMKANLARI BİZƏ BU VƏZİFƏNİ ŞƏRƏFLƏ YERİNƏ YETİRMƏYƏ ŞƏRAİT YARATMIŞDIR"

Bu yaxınlarda sentyabrın 19-da Azərbaycan Ordusunun Qarabağda başlatdığı lokal xarakterli antiterror tədbirlərinin qısa müddətdə öz müsbət nəticəsini verməsi, separatçıların təslim olması əlbəttə ki, ölkəmizin növbəti uğuru kimi tariximizə həkk olundu. Dövlətimizin başçısının sentyabrın 20-də növbəti tarixi qələbəmizlə bağlı xalqa müraciəti hər birimizi qürurlandırdı. Təqribən, bir gün davam edən antiterror tədbirlərinin uğurla başa çatması nəticəsində Azərbaycan öz suverenliyini tam bərpa etdi. Azərbaycan keçirdiyi antiterror tədbirlərində bütün hədəflərə diqqətlə və ehtiyatla yanaşdı, heç bir mülki obyektə zərbələr endirilmədi. Sentyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində qeyd etdiyi kimi, ordumuzun, bütün Silahlı Qüvvələrimizin peşəkarlığı, texniki imkanları bizə bu vəzifəni şərəflə yerinə yetirməyə şərait yaratmışdır və bir daha Azərbaycan əsgəri, zabiti həm yüksək peşəkarlıq, həm də yüksək mənəvi keyfiyyətlər göstərmişdir.

Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan Milli Ordusu Hərbi Hava və Hava Hücumundan Müdafiə, Hərbi Dəniz və Quru qoşunlarından ibarətdir. Bu qoşun növləri potensial rəqiblə qırıcı və bombardmançı təyyarələrlə effektiv mübarizə aparmaq iqtidarındadır. MDB çərçivəsində Azərbaycan hava hücumundan müdafiə qüvvələrinə malik ən güclü ölkələrdən sayılır. Büdcə vəsaiti ildən-ilə artırılan Azərbaycan Silahlı Qüvvələrinin buna müvafiq olaraq hərbi imkanları da genişlənir. "Uğurlu iqtisadi siyasətimiz bizə imkan verir ki, ordu quruculuğuna, yeni silahların, yeni texnikaların alınmasına, yeni döyüş birləşmələrinin yaradılmasına lazımi dərəcədə dövlət vəsaiti ayrılsın" - deyə Prezident çıxışlarının birndə bildirib. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılır. Məhz bunun nəticəsidir ki, Azərbaycan Cənubi Qafqaz regionunda ən güclü orduya malik ölkə statusunu daşıyır. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə zəfər yürüşünə başlaması və qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın edərək qələbə qazanması tariximizə yeni gün olaraq daxil edildi. Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika döyüş meydanında Azərbaycan Ordusunun "Dəmir yumruq" əməliyyatını sürətlə və az itki ilə həyata keçirməyə imkan verdi. Bu gün hərbi əməliyyatlar zamanı istənilən nöqtədə düşmənə sarsıdıcı zərbələr endirmək qabiliyyətinə malik güclü ordumuz var. Cənab Prezidentin vurğuladığı kimi, "İkinci Qarabağ müharibəsinin dərsləri Ermənistan tərəfindən unudulmamalıdır və onlar bilməlidirlər ki, odla oynamaq onlara baha başa gələcək".

***Zümrüd BAYRAMOVA***

# Ocağı sönməyə qoymayanlar...

## Unutmayın ki, o ocaqda elə özünüz "yanıb kül olacaqsınız"







Azərbaycan regionda mövqelərini daha da möhkəmləndirərək söz sahibinə çevrilmiş, beynəlxalq müstəvidə layiqli yerini tutmuş, dünya dövlətləri sırasında yüksək nüfuz qazanmışdır. Hər zaman milli maraqlarında qətiyyətli mövqe nümayiş etdirən dövlətimiz Cənubi Qafqazda sülhün bərqərar olmasına var gücü ilə çalışır və sülh müqaviləsinin imzalanmasının təkcə iki ölkənin deyil, bütün regionun xeyrinə olacağını bəyan edir. Gələcəyə xoş ümidlər bəsləyən Azərbaycan sülh, tərəfdaşlıq mövqeyini ortaya qoyaraq Ermənistana sülh razılaşması üzərində çalışmaq, düşmənçilik səhifəsini çevirmək və sərhədlərin delimitasiyasını təklif edir. Hər iki ölkənin bir-birinin ərazi bütövlüyünü tanımasını, sərhədlərinin delimitasiyasını, kommunikasiyaların açılmasını nəzərdə tutan, 5 baza prinsipi əsasında irəli sürülən sülh sazişinin imzalanması regiona əmin-amanlıq gətirmək istəyində olan Azərbaycanın dəyişməz mövqeyidir.

Qalib Azərbaycan sülh və sabitliyin əldə olunması üçün bütün vacib addımaları atıb, üzərinə düşən öhdəlikləri yerinə yetirib - Ermənistan isə hələ də mövqeyini dəqiq müəyyənləşdirməyib - rəsmi İrəvan hələ də sülh prosesini manipulyasiya etməklə məşğuldur. Bəzi məqamlarda bəhs olunan əməkdaşlıq formatlarının yaranmasında, hətta orada iştirakda maraqlı olduğunu deyən İrəvan nəticəyə hədəflənən iradə nümayiş etdirmir. Təəssüfləndirici haldır ki, bu kimi müşahidələr Ermənistanın regional əməkdaşlıqda maraqlı olmadığını açıq-aşkar təsdiqləyir. Görünən odur ki, Ermənistanda hələ də reallıqdan uzaq, səfeh utopik xəyallarla yaşayan siyasi qüvvələr qalmaqdadır və həmin qüvvələr xaricdəki erməni lobbisi ilə birləşərək qərarlara təsir edə bilirlər.

Bəllidir ki, Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Şarl Mişelin vasitəçilik təşəbbüsü kimi meydana çıxan və "Brüssel formatı" adı alan danışıqlar platforması qurulmuşdu. 2021-ci il dekabrın 14-dən etibarən "Brüssel formatı" çərçivəsində səmərəli gö-rüşlərin keçirilməsinə başlanılmısdı. Bu görüşlərdə konkret məsələlər müzakirə olunur, tərəflər arasında fikir ayrılıqları yaradan məqamlar aradan qaldırılır, beləliklə, müəyyən nəticələr əldə edilirdi. Fransa ilk dəfə 2022-ci il oktyabrın 6-da Çexiyanın paytaxtı Praqada "Avropa Siyasi Birliyi"nin I zirvə görüşü çərçivəsində "Brüssel formatı"nda keçirilən görüşə özünü dürtdü. Bununla da Fransa faktiki olaraq, Brüssel formatını pozdu.

Bunun nəticəsidir ki, oktyabrın 5-də İspaniyanın Qranada şəhərində "Avropa Siyasi Birliyi"nin III zirvə görüşü çərçivəsində Azərbaycan Prezidenti və Ermənistan baş naziri arasında keçirilməli olan görüş baş tutmadı. Azərbaycan Fransa Prezidenti Emmanuel Makronun və Almaniya Kansleri Olaf Şoltsun da qatılacağı görüşdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakını təklif etdi. Ancaq məhz Makron bunun əleyhinə çıxdı. Nəticədə dövlət başçımız haqlı olaraq görüşə qatılmadı.

Sonra Nikol Paşinyan "bəzi səbəbləri" əsas gətirərək oktyabrın 13-də Bişkekdə Müstəqil Dövlətlər Birliyi Dövlət Başçıları Şurasının iclasına qatılmaqdan imtina etdi. Paşinyan bununla həm də Rusiyanın vasitəçilik səylərinə qarşı çıxmış oldu.

Avropa İttifaqı Bakını və İrəvanı 2023-cü ilin sonuna qədər yekun sülh sazişinə imza atmağa çağırır. İlk baxışdan bu çağırışlar xoş niyyətdən, sağlam yanaşmadan xəbər verir. Doğrudan da ilin sonunadək Azərbaycan və Ermənistan arasında yekun sülh sazişinin bağlanması üçün münbit şəraitin yarandığı hiss olunur. İntəhası, Aİ özünün ikibaşlı davranışına, qurumun üzvü olan bəzi ölkələrin açıq pozuculuq fəaliyyətinə həssas və diqqətli yanaşsa, bölgəyə sülh daha tez gələr. Bəli, Fransa və onunla eyni mövqedən çıxış edən Qərbin bir çox ölkələri indiki məqamda Cənubi Qafqazda sülh prosesinə ciddi əngəl törədirlər və Aİ özündə cəsarət tapıb bunu etiraf etməli, üzərindəki basqını yenməyi bacarmalıdır.

Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması yalnız iki ölkənin deyil, ümumilikdə regionun inkişafına, iqtisadi əlaqələrin möhkəmlənməsinə imkan yaradacaq. Lakin tarixən savaşlar, münaqişələr məkanına çevrilən Cənubi Qafqazda sülhün bərqərar olması bəzi dövlətlərin maraq dairəsində deyil və onlar öz maraqlarını təmin etmək üçün Ermənistandan forpost ölkə kimi istifadə edirlər. Cənubi Qafqaza xüsusi meyil göstərən Avropa İttifaqı, Fransa, ABŞ kimi ölkələr regionda üstünlük qazanmaq və geosiyasi, geoiqtisadi maraqları uğrunda fəal rəqabət aparırlar. Göründüyü kimi, "yuyulmamış çömçələrin" siyasi arenadakı canfəşanlığı ucbatından iki ölkə arasında danışıqlar prosesi faktiki olaraq, pozulmuş durumdadır. Sülhə gedən yolları dalana dirəyən səbəblər təkcə siyasi arenada tükənmir. Bunun hələ hərbi tərəfləri də var

Oktyabrın 30-da Ermənistanın 2024-cü il üçün dövlət büdcəsi layihəsinin parlamentin daimi komitələrində ilkin müzakirəsi zamanı N.Paşinyan bildirib ki, gələn ilin dövlət büdcəsində müdafiə xərcləri 309 milyard dram (768 milyon 656 min ABŞ dolları) artırılacaq. O qeyd edib ki, hökumət üçün silahlı qüvvələrdə islahatların aparılması mühüm əhəmiyyət kəsb edir. Üstəlik, N.Paşinyan müzakirələr zamanı qeyd edib ki, bununla da 2024-cü ildə büdcədən müdafiəyə ayrılan xərclər 2018-ci illə müqayisədə 125 faiz artmış olacaq.

Doğrudur, Paşinyan büdcədə müdafiə xərclərinin artırılmasının yarada biləcəyi suallardan yayınmaq üçün dərhal əlavə edib ki, xərclərin artan dinamikası heç bir halda bəyan etdikləri sülh gündəliyinə zidd deyil. Ancaq buna inanmaq çətindir. Çünki fakt faktlığında qalır. Fakt isə odur ki, rəsmi İrəvan bir tərəfdən sülhdən danışır, digər tərəfdən gələn ilin müdafiə xərclərini artırır. Bu az imiş kimi, hələ bir iddia da edir ki, xərclərin artımı heç bir halda sülh gündəliyinə zidd deyil. Ermənistan iqtisadçılarının hesablamalarına görə, bununla da 2024-cü ildə ölkənin müdafiə büdcəsi, orduya ayrılan xərclər əvvəlki illə müqayisədə iki dəfə artırılmış olacaq.

Hazırkı ağır iqtisadi durumda məğlub Ermənistan yenidən silahlanmaq eşqinə düşərək dünyanın müxtəlif ölkələrindən "yığdığı" silahlarla vahid təhlükəsizlik sistemini formalaşdırmaq istəyir. Bu baxımdan, Ermənistanın son vaxtlar Fransa və Hindistandan silah-sursat alması da diqqətdən yayınmamalıdır. Oktyabrın 23-də Parisdə Fransa və Ermənistan müdafiə nazirləri - Suren Papikyan və Sebastyan Lekornyu "Thales" şirkətinin istehsalı olan üç ədəd "GM 200" radarının alqı-satqısına dair müqavilə və gələcəkdə Fransanın "Mistral" yaxınmənzilli hava hücumundan müdafiə sistemlərinin tədarükünə dair anlaşma memorandumu imzalayıblar. Paralel olaraq, Avropa İttifaqının Ermənistandakı Mülki Missiyası (EUMA) adlanan, əslində isə hərbiləşdirilmiş strukturun gücləndirilməsi prosesi gedir.

Rusiya mənbələri yazır ki, Ermənistan 2022-ci ildə Hindistandan ümumilikdə 244,7 milyon dollar dəyərində silah və sursat, o cümlədən "Pinaka" reaktiv yaylım atəşi sistemləri alıb. 2023-cü ilin yanvarında Hindistan mediası Ermənistan hakimiyyətinin "Sovet S-125 Peçora" zenit-raket komplekslərini hind MRASM-ı ilə əvəz etmək niyyətində olduğu barədə məlumat yaymışdı. Bundan əlavə, Ermənistanın Hindistandan ATAGS özüyeriyən haubitsalar alması barədə də məlumat verilib. ABŞ-ın "Forbes" jurnalı isə yazır ki, Ermənistan 2019-cu ildə Rusiyadan aldığı dörd "Su-30 SM" döyüş təyyarəsini modernləşdirmək və müasir raketlərlə təchiz etmək üçün Hindistana göndərməyə hazırlaşır.

Parislə İrəvanın silah satışı üzrə bağladığı müqavilə isə Ermənistanın vəziyyətini normallaşdırmaqdan çox gərginləşdirməyə xidmət edəcək. Bu da Rusiya ilə münasibətlərin getdikcə pisləşməsinə, eyni zamanda, erməni cəmiyyətində siyasi parçalanmanın dərinləşməsinə gətirib çıxaracaq, rusiyayönümlü qüvvələrlə qərbyönümlülərin savaşı güclənəcək. Azərbaycan və Türkiyə kimi güclü dövlətlərlə münasibətlərin normallaşması, nəticədə Ermənistan iqtisadiyyatının dirçəlməsi perspektivi zərbə altına düşəcək.

Rusiyalı hərbi ekspertlərin fikrincə, əlbəttə, bu ölkə özünün müdafiə imkanları ilə qətiyyən öyünə bilməz, bunu Azərbaycanla müharibədəki ağır məğlubiyyət də sübuta yetirib. Rus mütəxəssislər əmindirlər ki, Fransa ilə müttəfiqlik Ermənistanı heç də düşdüyü vəziyyətdən çıxarmağa qadir deyil. Moskva Strategiya və Texnologiyaların Təhlili Mərkəzinin direktoru Ruslan Puxov İrəvanın Parislə silah alışına dair bağladığı müqaviləni Ermənistanın silah təchizatı üçün ciddi addım hesab etmir. Puxovun fikrincə, fransız silahları həm çox bahalıdır, həm də olduqca kaprizli sayılır. Fransa istehsalı silahlar alan ölkə həmin sursatın istifadəsi üçün mütləq Fransadan bu silahlar üzrə ixtisaslaşmış kadrlar dəvət etməlidir.

Bir tərəfdən Nikol Paşinyan Avropa Parlamentinin tribunasından "sülh çağırışı edir", digər tərəfdən, xarici işlər naziri Ararat Mirzoyan Tehranda əməkdaşlığın inkişafına eyham vurur, üçüncü tərəfdən isə müdafiə naziri Suren Papikyan Parisdə ölkəsinin silahlandırılması üçün yeni - köhnə "mənbələr"dən silah yığır. Təbii ki, bu hal birmənalı qarşılana bilməz və Ermənistanın bu "ikiüzlü" siyasi xətti fərqli assosasiya yaradır - məğlub ölkə regionda yeni müharibə axtarışındadırmı? Maraqlıdır, Ermənistan sülh istəyir, yoxsa yumruq, özü də "dəmir yumruq"?

Bu gün Zəngəzur dəhlizi üzərindən manipulyasiya etməyə çalışan Ermənistan düşünməlidir ki, Fransanın "çətiri" ona iqtisadi-siyasi azadlıq vəd etmir. Əksinə, Paşinyanın da aylar öncə etiraf etdiyi kimi, onsuz da "kupçasız dövlət" sayılan Ermənistan bu yolla özünü uçurumun düz kənarına gətirib çıxaracaq - ən yaxşı halda Fransa və başqa maraqların "dəyənəyi"nə çevirəcək.

Hazırda Ermənistanda baş verən daxili çəkişmələr, həyata keçirilən uğursuz daxili və xarici siyasət, revanşist ideyalar sülhə əngəl törədərək onların tərəqqi yolunu bağlayır. Bundan başqa, Qarabağdan gəlmiş ermənilərlə yerli ermənilər arasında yaranan narazılıqlar, onlara "qaçqın" statusunun verilməsi ilə bağlı absurd işlərlə məşğul olmaq ermənilərin bu fürsəti əldən qaçırmalarına səbəb ola bilər. Nəzərə almaq lazımdır ki, hazırkı vəziyyət Ermənistan üçün əsl fürsətdir. Çünki antiterror tədbirləri nəticəsində Azərbaycan istəyinə nail olub, üstəlik, Zəngəzur dəhlizinə alternativ yol çəkilir. Yəni, bundan sonrakı mərhələdə Ermənistanın sülhdən yayınması Azərbaycanı maraqlandırmaya bilər. Azərbaycan özü təkbaşına haqq-ədaləti bərpa etmək gücündədir.

Ermənistan rəhbərliyi düşünməlidir ki, bu gün sülh sazişinin imzalanmaması, kommunikasiyaların açılmaması onu nə qədər geri atır. Boş vədlər verilməsinə baxmayaraq, kimsə onların iqtisadiyyatını dirçəldən deyil. Nəzərə almaq lazımdır ki, hər ölkənin öz maraqları var. Eyni zamanda, erməniləri silahlandırmaq da onları boyunduruğa salmaq, gələcəkdə asılı vəziyyətə qoymaq niyyətindən irəli gəlir. Ermənistan bu gedişlə müstəmləkə siyasətinin qurbanına çevrilə bilər. Ona görə də onun yeganə yolu Azərbaycanla sülh müqaviləsi imzalamaqdır.

Azərbaycanla sülh Ermənistana 29 min kv.km-lik kupça verəcək. Azərbaycan İrəvana humanizm və sülh əlini uzatmaqla onların dövlət kimi təşəkkül tapmasına imkan yaradır, onların beynəlxalq münasibətlər sisteminin müstəqil subyektinə çevrilməsini şərtləndirir və nəhayət, 30 ildən sonra da olsa, "kupça" olaraq dünyanın dövlətçilik tarixində yer almasına zəmin formalaşdıracaq. Ermənistan bundan istifadə etsə nə xoş ona Əks halda, ermənilər əbədi olaraq problemlər və çətinliklərlə yaşamağa məhkum olacaqlar.

Proses isə onu göstərir ki, Paşinyan və komandası Ermənistana kupça almaq üçün ya maraqlı deyillər, ya da iradələri çatmır. Ermənistanın onu gözləyən böhrandan xilas olması üçün bir yolu var: uzaq Fransanın qanadı altına sığınmaq yox, Qafqaz qonşuları ilə sülh şəraitində yaşamaq.

***Yaqut Ağaşahqızı***

# Şahramanyanla Sarqsyan nədən danışıblar?

## Yaxud, Moskvadan gələn anti-Paşinyan tapşırığı





***Bu günlərdə məlum olub ki, Ermənistanın sabiq prezidenti Serj Sarqsyan özünü buraxmış qondarma "artsax"ın "rəhbəri" Samvel Şahramanyanla görüşüb.***

Bu barədə yazan "Hraparak"a görə, Samvel Şahramanyan və yaxın dəstəkçilərinin "Armenia Marriot" otelində keçirilən görüşdən sonra Ermənistan hakimiyyətinin separatçı rejim təmsilçilərinə qarşı təzyiqi daha artıb.



ANALİTİK

### Erməni KİV: "Eks-prezident Samvel Şahramanyanla görüşdə maraqlı olduğunu dilə gətirib və onu dinləmək istədiyini vurğulayıb"

Belə ki, Nikol Paşinyan iqtidarına qarşı demarş edən və onun devrilməsi çağırışlarını dəstəkləyən Samvel Şahramanyan məhv edilmiş "dqr"in "mühacirət hökuməti"ni yaratdığını elan edərək "mübarizələrini" "hüquqi müstəvidə" aparacaqlarını qeyd etmişdi.

Digər erməni nəşri "Armenian report" isə yazır ki, bir neçə gün əvvəl müxalif "Respublikaçılar" partiyasının sədri Serj Sarqsyanla keçirilən görüşdə tərəflər Paşinyanı devirmək mövzusu ətrafında müzakirə aparıblar. Məqalədə qeyd olunur ki, Samvel Şahramanyanla görüş təklifi Serj Sarqsyan tərəfindən gəlib. "Eks-prezident Samvel Şahramanyanla görüşdə maraqlı olduğunu dilə gətirib və onu dinləmək istədiyini vurğulayıb", yazan KİV qapalı keçirilən görüşdə hansı mövzuların müzakirə edildiyinin açıqlanmadığını qeyd etsə də, əslində, söhbətin nədən getdiyinin bəlli olduğunu vurğulayıb.

### Qarabağ ermənilərinin dəstəyindən istifadə edərək, böyük antihakimiyyət koalisiyası yaratmağa hazırlaşırlar

"Lakin görünən odur ki, Ermənistan müxalifəti hakimiyyətə qarşı sonuncu kartından istifadə etməyə meyllidir", - deyə məlumatda yazılıb.

Nəşr vurğulayıb ki, hazırda Qarabağdan köçən insanlar Ermənistanda ciddi narazı elektorat hesab olunur. Paşinyanı devirmək istəyən radikal müxalif qüvvələrin bu təbəqə ilə maraqlanması təsadüfi deyil. Paşinyan əleyhdarları iqtidar tərəfindən aldadılmış Qarabağ ermənilərinin dəstəyindən istifadə edərək, böyük antihakimiyyət koalisiyası yaratmağa hazırlaşırlar. Ermənistanın sabiq prezidentləri Robert Koçaryan və Serj Sarkisyanın da təmsil olunacağı koalisiyanın İrəvanda sükutu pozmağa iddialı olduğu bildirilir. Ermənistanda küçə döyüşlərinin yenidən başlayacağı gözlənilir.

Lakin ən real fakt budur ki, bu məsələdə onları Moskva dəstəkləyir. Belə ki, bir sıra siyasi şərhçilər də sözügedən qüvvələrin bir araya gəlməsinin təsadüfi olmadığını düşünürlər. Onların fikrincə, "düymə"ni Kreml basıb və əlində olan bütün imkanlardan istifadə edəcək.

***Afət Tahirqızı***

# "Dağıdıcı müxalifət xaricdən maliyyələşir"

MÜNASİBƏT

Azərbaycan Prezidentinin qətiyyətli və uzaqgörən müdrik siyasəti nəticəsində Azərbaycan dövləti bu qələbəni əldə etdi. Bu qələbə Azərbaycan dövlətinin, ordusunun və xalqının tarixi bir qələbəsidir". Bunu SİA-ya açıqlamasında siyasi şərhçi Teyyub Qənioğlu deyib. Onun sözlərinə görə, Azərbaycan öz ərazisində suverenliyini tam bərpa edib: "Bu gün Qarabağın hər bir yerində Azərbaycanın üç rəngli bayrağı dalğalanır. Bu da çox qürurverici bir haldır. İnşallah, Zəfər bayramı günü Xankəndində hərbi parad keçiriləcək və bu da düşmənlərə bir gözdağı olacaq. Bununla Azərbaycan dövləti bütün dünyaya sübut edəcək ki, Qarabağ Azərbaycandır və Qarabağ Azərbaycanın tarixi torpaqlarıdır. O ki, qaldı bizim sapı özümüzdən olan "baltalar"mıza, bədxahlarımıza bunların bu qələbəyə bu cür yanaşmalarından təəccübənmək olmaz. Çünki el arasında belə bir misal var: pulunu kim verirsə musiqini də o sifariş edir. Yəni bu insanlar xaricində maliyyələşən insanlardır. Uzun müddətdir xaricidən aldıqları təlimat əsasında fəaliyyət göstərirlər. Bu gün heç kəsə sirr deyil ki, radikal müxalifət qüvvələri xarici qüvvələrin əlində bir aləmdir və lazım gəldikdə isə sözügedən şəxslərdən həmin xarici havadarlar bir alət kimi istifadə edir. Radikal müxalifət bizim bu qələbəmizə kölgə salmaq üçün əllərindən gələni edir və başlayırlar bu cür boş-boş danışmağa. Onlar bu qələbəni həzm edə bilmirlər. Lakin nə istəməsindən asılı olmayaraq, onalar heç vaxt bu parlaq qələbəyə kölgə sala bilməyəcəklər. Çünki hər kəs bunların kim olduğunu yaxşı bilir".

***Gülyana***



**İLHAM**

# "Azəriqaz" və ADY nə etmək istəyir?

Dahilərdən birinin belə bir aforizmini oxumuşdum: "Nadan adamla mübahisə etmə, o səni öz səviyyəsinə endirib məğlub edər". Haqlı və əsaslı müdrik kəlamdır. Sadəcə, bir əmması var ki, günümüzdə çoxları üçün bu kəlam keçərli deyil. Çünki həmin kateqoriyadan olan bəşər övladları özlərini hər kəsdən daha haqlı və mükəmməl hesab edirlər. İstəsən ki yol göstərəsən, məsləhət verəsən köntöy-köntöy səni süzüb deyər ki, get tullanmağının dalınca, sən məndən ağıllısan? Bir qədər də dərinə gedib deyər ki, bilirsənmi, mənim sosial şəbəkələrdə dostluğumda olanların sayı nə qədərdir? Təbii ki, sən də məsləhətindən peşman olduğundan gözlərini döyə-döyə - xeyr, bilmirəm - cavabını verəcəksən. Həmin "ağıllı" sosial şəbəkə istifadəçisi amiranə poza alıb ədalı şəkildə - minlərlədir, bildin, minlərlə onlar hər gün mənim paylaşdığım videolara baxıb feyzyab olurlar, ən çox da bəyənmə işarəsi ilə mükafatlanan istifadəçiyəm, - deyə bildirəcək və bir daha səni tərs-tərs süzüb, gedəcək şərafətli hesab etdiyi işini davam etdirməyə.

Ümumiyyətlə, gəldiyim qənaət ondan ibarətdir ki, idarə, müəssisə, təşkilatlar, şirkətlər, qruplar və digərləri elə insan xarakterinə bənzəyir. Yəni, idarəetməsi, baxışları, fəaliyyət istiqamətləri ziddiyyətli insan təfəkkürünə oxşayır. Elə uzağa getməyək, cəmiyyətimizdə bir sıra şirkətlərin, idarələrin, qurumların fəaliyyətlərinə nəzər yetirsək, haqlı olduğum məlum olar. Eyni səhvlərə yol verməları və insanlara qarşı eyni kobudluğu göstərmələri cümleyi-aləmdə elə təsəvvür yaradır ki, bu qurumların bəzi təmsilçiləri qida rasionalında adı keçməyən ərzaqlardan bəhrələnirlər. Misal olaraq, Dəmir Yolları Qapalı Səhmdar Cəmiyyəti ilə "Azəriqaz" Qapalı Səhmdar Cəmiyyətini göstərmək olar. Sanki bu qurumlar bir medalyonun iki üzdürlər. Azərbaycan insanlarına qarşı hər cür yamanlıqları, pislikləri, hörmətsizlikləri edirlər. Belə demək mümkünsə, bir bəla olub keçiblər əhli-cümleyi Azərbaycan vətəndaşlarının boğazına. Əhali qaz limitinin ləğv edilməsi ilə bağlı xahişlər edir, Milli Məclisin deputatları təkliflər irəli sürürlər, lakin "Azəriqaz" rəhbərliyi - olmaz, - deyir. Hələ bu azmış kimi, keyfiyyətsiz təbii qazla əhalini imtahan edirlər. Aradabir qaz borularına hava vurduqları da insanların dilindən səslənir.

Narazılıq var, lakin bu narazılıqların aradan qaldırılmasına təşəbbüslər yoxdur. "Azəriqaz" QSC rəhbərliyi iş gördükləri görüntüsünü yaratmaq üçün tez-tez kənd və qəsəbələrdə əhali ilə görüşlər keçirdikləri barədə özlərinə yaxın saytlarda məlumatlar yayırlar. Hərdən elan verirlər ki, guya respublika üzrə insanlarla onlayın görüşlər təşkil olunur. Lakin unudurlar ki, bəzi kəndlərimizdə təbii qaz olmadığı kimi internet də yoxdur. Yəni, bu məlumatları siyahınızdan silin, keçərli deyil.

Maraqlıdır ki, bu qurumlar etdikləri hərəkətlərə, atdıqları addımlara görə hesabat da vermirlər. Dəfələrlə sual olunub ki, niyə Dəmir Yolları Qapalı Səhmdar Cəmiyyəti uzun illər istifadə edilən kupe və plaskart tipli sərnişin qatarlarını ləğv edib? Nədən respublikamızın rayonlarına hərəkət etmiş sərnişin qatarları sıradan çıxarılıb? Süpürgəçi, bələdçi, fəhlə, maşinist daxil olmaqla ümumilikdə, 250-yə yaxın insanın günahı nə idi ki, "sizlər işdən azadsınız", deməklə onlar çörəklə imtahan edildi? Bakı-Xırdalan-Sumqayıt sürət qatarlarının sayını artırmaq çətindirmi? Hər gün mən də minlərlə sərnişin kimi bu qatardan istifadə edirəm, gördüyüm mənzərə, həqiqətən də, ürək ağrıdır. Dəfələrlə qatardakı insan sıxlığından yaşlı insanların, gənc xanımların ürəklərinin sıxılıb ölüm-qalım arasında çarpışmalarının şahidi olmuşam. İnsanlar pilləkənlərdə, qatarlara keçiddə sıxlıqdan əziyyət çəkdiyi halda, ikinci mərtəbə xüsusi imtiyazlı və ya pullu insanlar üçün bloklanıb. Yəni, ora sadə insanların keçidinə icazə verilmir. Nədən ayrı-seçkilik edilir, başa düşmək olmur. Azərbaycan azad, demokratik dövlətdir, ayrı-seçkiliyin hər cür növü qanunazidd hesab olunur və bu hallara yol vermək qəti qadağandır. İnsanların cibinə görə də fərq nəzərdə tutulmur. Elə isə Azərbaycan Dəmir Yolları Qapalı Səhmdar Cəmiyyəti niyə qatarlardakı ikinci mərtəbəyə insanların keçidinə icazə vermir?

Bir sözlə, Azərbaycan Dəmir Yolları Qapalı Səhmdar Cəmiyyəti və "Azəriqaz" QSC fəaliyyətsizlikləri ilə ictimai rəydə özləri haqqında mənfi rəy formalaşdırıblar. Vəziyyətin düzəlməsi isə mümkünsüz görünür. Çünki rəhbərlik ya yerində deyil, ya da bilərəkdən iş mexanizmlərində dəyişiklik etmirlər. Ancaq yaxşı olardı ki, bu iki qurum birləşsin. Ya Azərbaycan Dəmir Yolları Qapalı Səhmdar Cəmiyyəti "Azəriqaz"-ın tabeliyinə verilsin, ya da ikinci birinciyə birləşsin. Yetər ki, birləşsinlər. Bu halda insanların təskinliyi yalnız o olar ki, onlara tərəf daşın iki mərkəzdən deyil, bir mərkəzdən atıldığını görmüş və anlamış olarlar.

# Dəbin sonu, xəstəliyin başlanğıcı - anoreksiya

## Arıqlığın gözəllik etalonu kimi təbliğ edilməsi qızları öldürür

***Siz də fərqindəsinizmi, bütün televiziyalarda, qadın proqramlarında, reklam çarxlarında, küçələrdəki reklam şitlərində, internet saytlarında arıqlamaq üçün min bir resept təklif edilir. Qadınların əksəriyyəti arıqlamaq arzusundadır və əksəriyyəti bunun üçün dəridən-qabıqdan çıxır. Həm də arıqlamaq istəyənlərin heç də hamısı normadan kök olanlar deyil, 55-60 kilo çəkisi olan da arıqlamaq istəyir, 80-90 kilo olanlar da. Çox vaxt bu istək anoreksiya ilə nəticələnir - əsrimizin ən böyük problemlərindən biri ilə.***



### Arıqlamaq eşqi ölüm gətirir

İnsanın qəsdən qidalanmanı azaltması və ya qidadan tamamilə imtina etməsi, özünü zorla qusduraraq mədəsindəki qidadan qurtulmağı və bütün bunlara görə sürətlə zəifləməsi və arıqlaması anoreksiya adlanır. Həkim Mehman Qurbanov deyir ki, anoreksiyalı insanlar ürək bulanması, mədə ağrısı, qəbzlikdən də şikayət edirlər. Onlar xəstəlik səbəbindən cinsi əlaqədə ola bilmirlər, uzun müddət bu tələbatlarını ödəmədikləri üçün isə psixoloji problemlər yaşayırlar.

Həkim deyir ki, müasir tibbdə anoreksiyanı bir növ ruhi xəstəlik kimi də qiymətləndirirlər: "Cəmiyyətdə anoreksiyaya meyilli olduqca çox insan var. Əsasən, qadınların və yeniyetmə qızların arzusu olan arıqlıq anoreksiya həddinə keçəndə orqanizm üçün olduqca çox təhlükə yaranır. Hər gün arıqlayan, çəkisindən itirən bu insanlar özlərini hələ də kök hesab edərək qidalanmanı minimuma endirir, bəzən yeyir amma dərhal özünü yediyini qaytarmağa məcbur edir, bəzi hallarda ümumiyyətlə yeməkdən imtina edirlər. Arıqlamağa normal pəhriz proqramları ilə başlayan anoreksiya xəstələri sonralar bu proqramları ən kəskin formada tətbiq edərək bütün qidalanma prosesini dayandırır, yalnız gündəlik lazım olan zülal və mineralları, o cümlədən karbohidratı həb formasında qəbul edir. Getdikcə itirilən çəkilər insanı yeriyən skelet formasına salır".

### Canlı skeletlər həyatdan küsür

Zamanla itirilən çəki elə həddə çatır ki, insan sümüklərinin üzərində nazik dəri ilə qalır, piy qatı və əzələlər yox olur. 1.60 sm boyu olan gənc qız 20-25 kiloyadək arıqlayır. Yeriməkdə, nəfəs almaqda problemlər yaşayan bu insanlar evə məhkum olurlar. Getdikcə yeməyə nifrət hissi gücsüzlüklə əvəz olur, əvvəllər yemək istəməməsi və özünü şüurlu şəkildə arıqlatması ölümə belə səbəb ola bilir.

Anoreksiyalı insanlar getdikcə içinə qapanır, aqressiv və kobud olur, sosial həyatı olmur. Əvvəllər arıqlığından zövq alan bu insanlar sonralar öz bədəninə baxdıqca narahat olmağa başlayır, amma artıq psixoloji cəhətdən anoreksiya onun damarlarına işləyib, yeməyə qarşı aqressiya yaradıb. Özündəki problemin fərqində olan bəzi anoreksiyalı insanlar doğmalarını çox yedirməkdə maraqlı olurlar.

### Anoreksiya necə yaranır?

Əslində həkimlər deyir ki, anoreksiya sadəcə yemək və çəki ilə bağlı problem olmaqla bərabər həyat tərzi, qəzəb, narahatlıq hisslərinin bütünləşərək təzahür etməsidir. Şəxsi həyatını öz nəzarətində saxlamaq istəyi insanların anodeksiya xəstəliyinə tutulmasına təkan verir.

Psixoloq Məlahət Həsənzadə deyir ki, aparılan ən son araşdırmalara görə, anoreksiya xəstəliyinin yaranmasında genetik və hormonal faktorlar da önəmli rola malikdir: "Amerikada hədsiz piylənmə faizi bu ölkənin səhiyyə qurumunu ölkənin arıq olan çox az qismini ideal bədən quruluşu olan qisim kimi təqdim etməyə məcbur edir. Buna görə də yeniyetmə nəsil örnək göstərilən qismə oxşamağa çalışır, yeməyi dayandırır, artıq çəkidən qorxur. Dünya ölkələrinin demək olar ki əksəriyyətində arıqlığı ideal quruluş kimi göstərən telekanallar insanları anoreksiyaya təhrik edir".

Bundan əlavə, anoreksiyası olan insan onu narahat edən, başqalarından fərqləndirən fiziki görünüşünə görə özünə nifrət edir. Yemək istəyir, amma psixoloji problemlər imkan vermir, kökəlmək istəsə də bu mümkün olmur. Buna görə də evə qapanır, ətrafı ilə bütün münasibətini kəsir.

Psixoloq deyir ki, anoreksiyası olmayan yeniyetmə sosial çevrəsini dəyişdikdə, ilk məhəbbəti uğursuz olduqda, məktəbdə yoldaşları ilə yola getmədikdə, zorakılığa məruz qaldıqda da yeməkdən imtina edərək çəkisini itirməyə başlayır və beləliklə, anoreksiyanın ilk toxumları səpilmiş olur.

Ailədə anoreksiya xəstəsi olan biri varsa, bu, ailənin digər üzvlərinə də təsir edir. Əgər ana anoreksiya xəstəsidirsə və bunu xəstəlik yox normal qəbul edirsə, hər gün tərəziyə çıxıb artdığı qramları görəndə dəhşətə gəlirsə o evdə böyüyən yeniyetmə də bunu normal hesab edəcək, yeməkdən imtina edərək anasına bənzəməyə çalışacaq.

### Bu da əlamətləri

Anoreksiya xəstələri ən birinci boy və yaş əmsalına görə qəbul edilmiş ideal çəkini qəbul etmir, onlar üçün ideal bədən forması minimum arıqlıqdır. Qadınlar anoreksiya xəstəsi olduğu andan etibarən aybaşı pozğunluqları yaşayır, kişilərdə isə cinsi hormonlar yox olur, hər iki cinsdə cinsi istəksizlik yaranır. Anoreksiyalı insanlar çəki azlığının yarada biləcəyi xəstəlikləri qətiyyətlə inkar edir, yeməkdən imtina edir, heç vaxt aclıq hiss etmədiyini deyir.

Anoreksiya təhlükəsi olan insanların əl və ayaqları həmişə soyuq olur, tez-tez xəstələnir. Bədənində və üzündə tüklənmə çoxalır, soyuğa dözümü olmur. Baş dərisi nazildiyi üçün saçları tökülür. Dərisi quruyaraq çatlayır. Yemək istəmir, amma məcbur yedirildikdə özünü qaytarmağa məcbur edir. Yemək yeməyə məcbur olanda isə ishal yaradan dərman içir ki, yediyi həzmə getmədən bədəndən xaric olsun.

Bundan əlavə, anoreksiya xəstələrini pəhriz dərmanları qəbul etməsindən də tanımaq olar. Bu insanlar arıq olduqları halda idmandan əl çəkmirlər. Yemək yeməyə məcbur olduqları zamanlar yediklərini tərəzidə çəkir, kalorisini hesablayır. Bu insanlar arıqlığın son həddində olduqları halda özünü hələ də kök hesab edir. Bədənini başqaları görüb ona baxmasınlar deyə gen-bol geyimlər geyinir. Gün ərzində özünü dəfələrlə tərəzidə çəkir.

Həmişə az yeməkdən və çəki problemindən danışır, ətrafdakılara piylənmənin zərərini başa salmağa çalışır, həkimlərin ifrat arıqlığın zərəri barədə xəbərdarlıqlarına məhəl qoymur. Yerişi belə dəyişən anoreksiya xəstələri başqaları yemək yeyəndə də qusmaq istəyir. Həmişə qəzəbli və özünəqapalıdır.

Anoresiyalı insanlar əslində hər zaman acdır və bunu hiss edirlər. Amma aclıq hissi onlara öz həyatlarını və bədənlərini idarə edə bilmək duğusu aşılayır. Bu da bir məqamda yaxşı olduqlarını - yəni çəki ata bilmək bacarıqlarını onlara sevdirir. Anoreksiyası olan insanlar bu hiss səbəbindən ölümə belə yol alça bilirlər.

### Hər 100 nəfərdən 20-si

Anoreksiya poblemi adətən 16-18 yaşlarda meydana çıxır. Dünyada bu yaş aralığında olan hər 100 nəfərdən birinin anoreksiya xəstəliyi var və bu xəstəlik daha çox qadınlar arasında yayılır. Kişilərin ərgənlik dönəmində qəbul etdiyi standartlar qızlardan fərqli olduğu üçün onlar anoreksiyaya tutulmurlar, əksinə yaxşı qidalanıb yaxşı idman edərək əzələ formalaşdırırlar. Anoreksiya xəstəsi kimi qeydə alınanların təxminən 10 faizi kişilərdir, yerdə qalan 90 faizlik statistika qızlara aiddir.

Anoreksiya inkişaf etmiş ölkələrdə, maddi vəziyyət normal olan cəmiyyətlətdə daha çox rastlanır. Çünki onların yeməksiz qalmaq qorxusu yoxdur, üstəlik, arıqlıq qadının gözəlliyi kimi qəbul edilir. Yeməyə bir tikə quru çörək tapmayan, aclığın, səfalətin hökm sürdüyü ölkələrdə də insanlar anoreksiya ola bilirlər, amma bu könüllü, bilərəkdən olmur, yemək qıtlığının nəticəsidir. Anoreksiya xəstələrinin hər 100 nəfərindən 20 nəfəri xəstəliyin qurbanı olur.

### Necə müalicə etmək olar?

Anoreksiya xəstələrinin müalicə çətindir, ona görə ki, onlar özlərini xəstə hesab etmirlər və müalicəni rədd edirlər. Yalnız xəstə olduğuna inanan və xəstəliyin ilk 6 aylıq mərhələsində olan anoreksiyalılar müalicə oluna bilir. Sağalmaq üçün xəstə sağalmağı özü istəməlidir.

Bəzən ev şəraitində müalicəsi mümkün olan bu xəstəliyi çox zaman xəstəxana şəraitində müalicə edirlər. Fiziki müalicələrlə birlikdə ruhi dəstək almaları, psixoloq seansları keçmələri vacibdir. Xəstəliyin eyni zamanda həm fiziki, həm də psixoloji müalicəsi daha effektiv olur. Anoreksiyalı insanlara ailəsinin dəstəyi mütləqdir, bu müalicə prosesini sürətləndirir. Müalcəsi uzun şəkən bu xəstəliyin növbəti qurbanı olmamaq üçün çəkinizə diqqət edin, nə çox yeyib piylənmə statistikasını artırın, nə də yeməkdən imtina edib anoreksiyalı xəstələr cərgəsinə qoşulun. İdeal çəki əmsalınızı hesabların və həmişə o çəkidə qalmağa çalışın.

İdeal çəkini hesablamaq üçün müxtəlif üsul və formullar var, burada boy, yaş, cins, bədən quruluşu və s. nəzərə alınır. Bu üsullara Brok, Devayn, Lorens formullarını, Ketl indeksini və s. misal göstərmək olar. Ən geniş yayılmış üsul fransız anrtopoloqu olan Pol Brokun formuludur, burada ideal çəkini hesablamaq üçün boy, yaş və cins nəzərə alınır. Formul aşağıdakı kimidir:

40 yaşa qədər insanlar üçün: boy(sm) - 110 = ideal çəki

40 yaşdan sonra: boy(sm) - 100 = ideal çəki

Tutaq ki, sizin 40 yaşınız var, boyunuz 1.70 sm-dir. 1.70-110=60 kq. Deməli, sizin ideal çəkiniz 40 yaşadək 60 kq-dır. 40 yaşdan sonra isə boyunuzdan 110 yox, 100 çıxılacaq, yerdə qalan 70 kq çəki sizin ideal çəkinizdir.

***Lalə Mehralı***

# 1 əsrin səs xəzinəsi: Şərqin ilk radiosu - 97 illik tarix və bu gün

*97 yaşlı Ana radiomuz xalqımızın səs məbədidir, lakin son vaxtlar bu funksiyasını itirmək üzrədir*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb*

“Danışan qutu”nun kəşfi insanlığın yeni eraya qədəm qoymasına səbəb oldu. Artıq uzaq məsafədən danışılanı eşitmək, xəbərlər almaq, əlaqə saxlamaq mümkün oldu. Radionun yaradıcısı rus mühəndisi Aleksandr Popov 1895-ci ildə elektromaqnit dalğalarını kəşf etmiş və onun ixtirası dərhal təcrübədə sınaqdan keçirilmişdi. Radiotexnikanın inkişafından sonra dünyanın siyasi mərkəzlərində bir-birinin ardınca radiostansiyalar fəaliyyətə başladı. 1922-ci ildə Moskvada Sovet İttifaqının ilk radiostansiyası fəaliyyətə başladı. Bundan cəmi 4 il sonra isə Bakıda bütün müsəlman şərqinin ilk radiosu efirə çıxdı.



AZƏRBAYCAN RADİOSU 105FM

## ”Danışır Bakı stansiyası”

1926-cı il noyabrın 5-də ”Bakinski raboçi” qəzeti oxucularına xəbər verirdi ki, paytaxtın bütün meydanlarında və klublarda səsucaldan qoyulub və sabah Bakıda radiostansiya işə başlayacaq. Noyabrın 6-da artıq SSRİ-nin ən böyük şəhərlərindən birinə çevrilmiş Bakının iri küçə və meydanlarında quraşdırılmış radiocihazlar xışıldayaraq dilə gəldi. Azərbaycan və rus dillərində ”Danışır Bakı stansiyası!” sözləri eşidildi. Bununla da Azərbaycan mətbuatında, mədəniyyətində və texnologiyasında yeni bir eranın əsası qoyuldu.

İlk verilişlərin hazırlanmasında Azərbaycan ədəbiyyatı və incəsənətinin görkəmli xadimləri fəal iştirak edirdilər. Bədii və musiqili verilişlərin müəllifləri Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Məmməd Səid Ordubadi, Cəfər Cabbarlı, Səməd Vurğun, Hüseynqulu Sarabski, Bülbül, Mustafa Mərdanov və başqaları idi.

Radionun ilk azərbaycanlı kişi diktoru Azərbaycan Politexnik İnstitutunun tələbəsi İsmayıl Əlibəyov, ilk azərbaycanlı qadın diktoru isə Azərbaycan Dövlət Universitetinin hüquq-iqtisad fakültəsinin tələbəsi Raya İmanzadə olurlar.

Sonrakı dövrdə Ənvər Həsənov, Hüseyn Natiq (Böyük Vətən müharibəsində həlak olmuşdur), Səməd Səmədov, Əsgər Mövsümzadə, Leyla Terequlova, Soltan Nəcəfov, Mirvarid Dilbazi, Hüseyn Qafarlı, Rafiq Ağayev, Məryəm Xudaverdiyeva, Həyat Musayeva, Yelena Orbeliani, Nina Petrova, Fatma Cabbarova, Züleyxa Hacıyeva, Gültəkin Cabbarlı, Aydın Qaradağlı, Nizami Məmmədov, Sabutay Quliyev, Ramiz Mustafayev kimi ustad diktorlar yetişdilər.

1929-cu ilin oktyabrında məşhur bəstəkar Müslüm Maqomayev Bakı radiosunun musiqi rəhbəri təyin olundu. Azərbaycan radiosunun verilişləri onun bəstələdiyi ”RV-8” radio marşı ilə açılırdı.

1932-ci ildə Müslim Maqomayev Üzeyir Hacıbəyovla birlikdə Radio Komitəsində ilk notlu Şərq alətləri orkestrinin yaradılmasına nail oldu. Görkəmli nasir və şairlərimizin, bəstəkarlarımızın sənət əsərlərinin radiodan səsləndirilməsi ədəbi dilin inkişaf etməsinə, milli mədəniyyət və ədəbiyyatımızın təbliğinə xidmət edirdi.

1931-ci ildə Azərbaycan radiosunda Mustafa Mərdanovun rejissorluq etdiyi ”Radioteatr” yaradıldı. Həmin ilin dekabrında Hüseyn Cavidin ”Şeyx Sənan” pyesi ilk dəfə radioda səsləndirildi. Daha sonra A.S.Puşkinin ”Boris Qodunov”, C.Məmmədquluzadənin ”Ölülər”, C.Cabbarlının ”Sevil”, V.Şekspirin ”Hamlet”, M.F.Axundovun ”Hacı Qara”, Ə.Haqverdiyevin ”Dağılan tifaq” pyesləri dinləyicilərə təqdim edildi. İlk radio tamaşaları birbaşa efirə çıxarılırdı. Azərbaycan teatr sənətinin və ədəbiyyatının radioya uyğunlaşdırılması böyük kütlələrin daha çox ədəbi əsərlərlə tanışlığına səbəb oldu. Radiotamaşalar, radiohekayələr, radioromanlar dinləyicilərin maraqla gözlədiyi verilişlər idi.



## Bakıdan dünyaya bulaq kimi axan səs dalğaları

1950-ci ildə türk və fars redaksiyalarının əsasında Xarici verilişlər baş redaksiyası yaradıldı. Sonralar daha bir neçə xarici dildə də (cəmi 8 dildə) proqramlar yayımlanmağa başladı.

1964-cü il oktyabrın 15-də Azərbaycan radiosunun 2-ci kanalı- ”Araz” xəbərlər və musiqi proqramı ilk dəfə efirə çıxdı. ”Araz” radiosunun yaranmasında və fəaliyyətində Teymur Əliyev, Ənvər Əlibəyli, Sabir Axundov, Soltan Nəcəfov, Kamil Məmmədov, Hacı Hacıyev, Aydın Qaradağlı, Valid Sənani, Yalçın Əlizadə, İlyas Adıgözəlov, Hidayət Səfərli və başqaları böyük rol oynadılar.

Təəssüf ki, 1998-ci ildə ”Araz” radiokanalı bağlandı.

Azərbaycan Radiosunun ”Sabahınız xeyir”, ”Axşam görüşləri”, ”Bulaq”, ”Vətən”, ”Natəvan” qızlar klubu, ”Lirika dəftərindən”, ”Muğam saatı”, ”Arzu” musiqi poçtu, ”Yazıçı və zaman”, ”Mahnı şəhəri gəzir”, ”Teatr mikrofon qarşısında”, ”Ana dili”, ”Körpü”, Ovqat, ”Elin sazı, elin sözü”, ”Açıq-aşkar”, ”Xudafərin”, ”Sözün düzü”, ”Baxış bucağı”, ”Dünya”, ”Pillə”, ”Çevrə”, ”Radio-atmaca”, ”Molla Nəsrəddin”, ”Yol”, ”Yuva”, ”Vaxt”, ”Dan yeri” kimi dinləyicilərin ruhunu oxşayan verilişlər radiotariximizə əbədi həkk olunub, onların bəziləri fəaliyyətini çoxdan dayandırsa da, hələ də yaddaşlarda yaşayır. Hətta, bəzi şərq ölkələrində belə onları lentə yazıb indiyədək öz arxivində saxlayan sadiq dinləyicilər var.

Radionun xalqımızın ürəyinə yol tapmış ənənəvi verilişləri arasında dünya efir məkanın ən yaşlı verilişlərindən biri olan ”Bulaq” verilişinin xüsusi yeri var. ”Bulaq” xalqımızın folklor xəzinəsi, ədəbi çeşməsi, mədəni irsininin daşıyıcısı, ana dilimizin, el dilimizin yaşadıcısıdır. 1969-cü ilin noyabrından efirə çıxan ”Bulaq” verilişinin araya ərsəyə gəlməsində və yaşadılmasında xidmətləri olan Cəmil Əlibəyov, Mövlud Süleymanlı, Məhluqə Sadıqova, Səməndər Rzayev, Vaqif Əlixanlı, Məmməd Aslan, Abbas Abdulla, Rəfael Hüseynov, Məhərrəm Qasımlı, Ağalar Mirzə, Mailə Muradxanlı, Rasim Balayev, Mikayıl Mirzə, Kamil Vəli, Səidə Quliyeva və digərlərini hörmətlə yad etmək lazımdır.

Hazırda ”Bulağ”ın ssenarilərini xalq çeşməsindən su içmiş Tahir Talıblı qələmə alır. Köhnə verilişlər də təkrarən efirə verilir. Radionun bütün digər verilişləri və çox dəyərli idi, sadəcə burada hamısından ətraflı danışmaq mümkün deyil, sadəcə, xalqımızın yarım əsrlik yaddaşına şahid olan bir verilişi misal çəkdik.

## Ana radiomuz öz dəyərini qoruyub saxlamalıdır

Azərbaycan radiosu həm də xalqımızın 1 əsrlik canlı audioarxividir. Tez-tez ana radiomuzun efirində ötən əsrin müxtəlif dövrlərinə aid verilişlər təkrar yayımlanır və çox böyük maraqla dinlənir. Bu radiokanalda Azərbaycan və dünya musiqisinin şedevrlərini dinləyə bilərsiniz, ara müğənnilərinə burada yer yoxdur. Bir sözlə, Azərbaycan radiosunu özünə, mədəni zövqünə, incəsənətə hörmət edənlərin radiosu saymaq olar.

Maraqlıdır ki, əvvəllər radioya qulaq asmaq üçün yalnız bir vasitə var idi- radioqəbuledici, dinləyici isə bol idi. İndi isə, radio dinləmək üçün vasitələr çoxdur, amma dinləyici azdır. Televiziya və internet insanları daha çox cəlb edir. Lakin radionun (bu sətirlərin müəllifinin də arasında olduğu) öz sadiq auditoriyası var və onlar üçün bunu heç nə əvəz eləmir.

Təəssüflə qeyd etmək lazımdır ki, gənc nəsil arasında ana radiomuzu dinləyənlərin sayı getdikcə azalır. Gənclərin çoxu fasiləsiz olaraq hay-küylü musiqilər verən özəl radioları dinləyirlər. Son illər internet radioların da sayı çoxalır. Bu stansiyalar bütün günü ancaq musiqi və hərdən də bir neçə dəqiqəlik xəbər buraxılışı verirlər. Nə vaxt açırsan, ya rep gedir, ya bədbin türk mahnıları, ya da meyxana filan. Bayağı mövzular, mənasiz söhbətlər, efirə yaraşmayan əcaib səslər

Azərbaycan radiosu isə bütün sahələrdə sanballı proqramlar hazırlayırdı. Xalq mahnıları, muğamlar, saz havaları, tarixi, mədəni, ədəbi verilişlər xüsusilə maraqla dinlənilirdi. Bu radioda yerli və əcnəbi müəlliflərin radiopyeslərini, radiohekayələrini, hətta romanlarını da dinləyə bilirdik. Üstəlik, uşaq verilişləri, radionağılları azyaşlılar üçün çox faydalı idi və maraqla dinlənirdi. Lakin

## Tarixi verilişlər hara yoxa çıxdı?

Təəssüf ki, son vaxtlar köhnə verilişlərin çoxu efirdən yoxa çıxıb. Artıq radionun Ədəbiyyat redaksiyası, Uşaq-gənclər redaksiyası, Maarifçilik redaksiyası, Xalq yaradıcılığı redaksiyası bağlanıb, verilişlər ləğv edilib. Xüsusi layihələr departamenti yaradılıb. Burada yeni layihələr üzrə ”müasir stildə” hazırlanan verilişlər sadiq dinləciyilərdə narazılıq yaradıb.

Xalq yaradıcılığı redaksiyasının verilişlərindən yalnız 2-si qalıb ”Bulaq” və ”İrəvan çuxuru”. Halbuki folklorumuz, qədim mədəniyyətimiz və ədəbi irsimizlə bağlı verilişlərə indi daha çox ehtiyac var. Mənəvi dəyərlərə aid verilişləri bağlayıb, şou verilişlər açmaq Azərbaycan radiosu kimi müqəddəs məbədi müasir özəl radioların səviyyəsinə salmaq olardı.

Ola bilsin bəziləri düşünər ki, müasir dövrdə yeni tipli verilişlərə, mahnılara daha çox maraq var deyə belə edilir. Tam əksinə, təcrübə göstərir ki, dinləyicilər qızıl fonddan olan mahnıları, ədəbi bədii verilişləri dinləməyi daha çox sevir. Məsələn son vaxtlar ən çox dinlənən radiolar Retro FM və Yurd FM-dir ki, onlar yalnız köhnə mahnıları verir, mahnı adı qoyulmuş müasir biabırçılıqları efirə buraxmırlar. Ona görə də, Ana radiomuz ”müasirlik, yenilik” deyib, 100 illik sifətini itirməməli, öz yolunu davam etdirməlidir.

Bu radio ümummilli radiodur, rəsmi dövlət radiosudur və dövlət büdcəsindən maliyyələşdirilir. Özəl radio deyil ki kommersiya maraqları üçün ucuz küçə radiosu səviyyəsinə düşə. Azərbaycan radiosu (o cümlədən televiziyası) tarixi-mənəvi missiyasını davam etdirməli, ənənələrini qorumalı və gənc nəsli milli-mənəvi dəyərlər əsasında tərbiyə edən bir məbəd kimi qalmalıdır.

## 1 əsrlik səs xəzinəmiz necə qorunur?

Əldə etdiyim məlumata görə, radionun arxivindəki xeyli lent yazısı düzgün qorunmadığından artıq sıradan çıxıb və vaxtında rəqəmli formaya keçirilməyib. Çox təəssüf Radionun verilişləri və onun arxivi bizim tarixi mədəni sərvətimizdir, onu qorumalı, yaşatmalı, təbliğ etməliyik. Radioda son 97 ildə səsləndirilmiş mahnılar, müxtəlif mövzulu verilişlər, pyeslər, hekayələr, romanlar, nağıllar və sair əsərlər xalqımızın qızıl səs fonduna daxildir, orta və yaşlı nəslə bunlar yaxşı tanışdır, amma gənc nəslə də onu çatdırmalıyıq. Çünki o radiomateriallarda humanizm, zəhmətkeşlik, vicdanlılıq, elmkeşlik, milli-mənəvi irsimizə hörmət kimi gözəl xüsusiyyətlər təbliğ olunur.

Yaxşı olardı ki, bütün köhnə lentlər rəqəmli formaya keçirilsin və verilişlər radionun saytında yerləşdirilsin. Beləliklə, həm ölkədə həm dünyada yaşayan azərbaycanlılar, o cümlədən tədqiqatçılar istədikləri vaxt bu səs məbədinin arxivindən bəhrələnə bilərlər. Azərbaycan radiosunu uzun və orta dalğada, həmçinin internet vasitəsilə dünyanın hər yerində dinləmək olur.

Səslər dünyasının tarixində bizim də imzamız var. Bu möhtəşəm imzanın arxasında qiymətli audiosənədlər arxivi XX əsrin 100 mindən artıq səs yazısı.

Xalqımızın mədəniyyət məbədlərindən biri olan Azərbaycan radiosunun dünyasını dəyişmiş bütün yaradıcılarının, işçilərinin ruhu şad olsun. Başda ”Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin sədri Rövşən Məmmədov olmaqla hazırkı kollektivə isə bu müqəddəs missiyasında böyük uğurlar arzulayır, arzu edirəm ki, Ana radiomuz xalqımızın ”Səs məbədi” funksiyasını daima qoruyub saxlasın. Bayramınız mübarək!

***Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
5 noyabr
2023-cü il

# Hansı hallarda işçinin maaşından tutula bilər?





AYDINLIQ GƏTİRİLDİ

"İşəgötürənlə işçi arasında narazılığa səbəb olan hallardan biri də əmək haqqından tutulmalarla bağlıdır. Belə ki, bəzi hallarda işəgötürənlər işçinin işə gecikməsi, verilən tapşırığı vaxtında və ya düzgün yerinə yetirməməsi və s. səbəblərdən işçinin maaşından müəyyən məbləğlər tuturlar". Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyinin sədri Fariz Əkbərov deyib. O, sözlərinə belə davam edib: "Müəssisələr işçinin işə gecikməsi və s. bu kimi digər hallarda əmək və icra intizamını təmin etmək məqsədilə, əmək haqqından müəyyən məbləğdə tutulmalar ediləcəyi ilə bağlı işçiyə xəbərdarlıq edirlər. Həqiqətən də, qanunvericiliyə əsasən, intizam tənbehi qismində əmək haqqından tutulma aparıla (cərimə) edilə bilər.

Lakin bunun üçün Əmək Məcəlləsinin 186-cı maddəsinin 2-ci hissəsinin c bəndində müəyyən edilmiş əsas olmalıdır - həmin hal mütləq şəkildə kollektiv müqavilələrdə nəzərdə tutulmalıdır və həmin məbləğ işçinin aylıq əmək haqqının 1/4-i məbləğindən çox olmamalıdır. Yalnız bu halda işə gecikmək və s. digər hər hansı intizam pozuntusu hallarında cərimə qismində yuxarıda qeyd edilmiş intizam tənbehi tətbiq edilə bilər.

Bəs kollektiv müqavilə nədir?

Kollektiv müqavilə - işəgötürənin, əmək kollektivinin və ya həmkarlar ittifaqları təşkilatının arasında yazılı formada bağlanan əmək, sosial-iqtisadi, məişət və digər münasibətləri tənzimləyən müqavilədir.

Əgər müəssisədə kollektiv müqavilə yoxdursa və ya orada bu məsələ nəzərdə tutulmamışdırsa, işçi yuxarıda qeyd edilmiş intizam tənbehinə məruz qala bilməz.

Əmək haqqından tutulmalar ilə bağlı ümumi məlumat vermək məqsədilə bildirmək istərdim ki, əmək haqqından yalnız aşağıdakı tutulmalar edilə bilər

I. Əmək haqqından aşağıdakı ümumi əsaslarla tutulmaların aparılması:

a) müvafiq vergilər, sosial sığorta haqları və digər icbari ödəmələr;

b) icra sənədləri üzrə müəyyən edilmiş məbləğ;

c) işəgötürənə işçinin (tam maddi məsuliyyət daşıdığı hallar istisna olunmaqla) təqsiri üzündən onun orta aylıq əmək haqqından artıq olmayan miqdarda vurduğu ziyanın məbləği;

ç) müvafiq iş ilinə görə məzuniyyətə çıxmış və həmin iş ili bitənədək işdən çıxdığı halda məzuniyyətin işlənməmiş günlərinə düşən məzuniyyət pulu;

d) xidməti ezamiyyətə göndərilən işçiyə avans olaraq verilmiş ezamiyyə xərclərinin ezamiyyətdən qayıtdıqdan sonra artıq qalmış borc məbləği;

e) mühasibat tərəfindən ehtiyatsızlıqla səhvən yerinə yetirilən riyazi əməliyyatlar nəticəsində artıq verilmiş məbləğlər;

ə) təsərrüfat ehtiyaclarından ötrü malların, əmtəələrin alınması üçün verilmiş, lakin xərclənməmiş və vaxtında qaytarılmamış pulun məbləği;

f) kollektiv müqavilələrdə nəzərdə tutulan hallarda müəyyən edilmiş məbləğ;

g) həmkarlar ittifaqının üzvü olan işçilərin əmək haqqından mühasibatlıq vasitəsi ilə tutulan və 4 iş günü müddətində həmin müəssisənin həmkarlar ittifaqı təşkilatının xüsusi hesabına köçürülən həmkarlar ittifaqına üzvlük haqları.

Eyni zamanda, işçinin ərizəsində göstərdiyi məbləğdə və müddətlərdə əmək haqqının müvafiq hissəsi kommunal xərclərin, bankdan aldığı ssudaların, kreditlərin və digər şəxsi borclarının ödənilməsi üçün tutularaq kreditorlara göndərilə bilər. İşçi belə ərizə ilə işəgötürənə müraciət etməyibsə, onun kreditorlarının tələbi ilə işçinin borcları əmək haqqından tutula bilməz".

**Ayşən Vəli**


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# DİQQƏT: Avtovağzallar gücləndirilmiş iş rejiminə keçir



**Azərbaycan ərazisində fəaliyyət göstərən bütün avtovağzal və avtostansiyalar Zəfər Günü və Dövlət Bayrağı Günü ilə əlaqədar 7-12 noyabr tarixlərində gücləndirilmiş iş rejimində çalışacaq. Bu barədə SİA-ya Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) məlumat verilib.**

Bildirilir ki, AYNA şəhərlərarası və rayonlararası marşrutlar üzrə sərnişin daşımalarını yerinə yetirən daşıyıcılar tərəfindən fasiləsiz və təhlükəsiz hərəkətin təmin edilməsi, bayram günlərində yarana biləcək sərnişin sıxlığının qarşısının alınması, eləcə də avtobusların təsdiq edilmiş cədvəl üzrə hərəkət qrafiklərinə ciddi riayət edilməsi ilə bağlı bütün avtovağzal və avtostansiyalara müvafiq tapşırıqlar verib.

Bakı Beynəlxalq Avtovağzal Kompleksində (BBAK) bayram günlərində sərnişin axınına uyğun olaraq, marşrutlar üzrə xətlərə buraxılan avtobusların intervalına, sürücülərin sərnişindaşımada təhlükəsizlik qaydalarına əməl etmələrinə xüsusi nəzarət olunacaq. Sərnişin sıxlığının qarşısını almaq üçün xəttə lazımi sayda əlavə avtobusun buraxılması təmin ediləcək. Vətəndaşlar biletləri avtovağzalların gündəlik və əvvəlcədən satış kassalarından, həmçinin biletim.az portalından onlayn qaydada əldə edə bilərlər. Qeyd edək ki, portala daxil edilən istiqamətlərin sayı hazırda 40-a çatıb. Onlayn bilet sistemi sərnişindaşıma sahəsində xidmət göstərən bütün daşıyıcıları və avtovağzalları mərhələli şəkildə əhatə edəcək. Hazırda sistemə qoşulan daşıyıcıların sayı 92, nəqliyyat vasitələrinin sayı isə 223-dür.

# Qidanı həddindən artıq qaynatmağın və qızartmağın fəsadları

"Qida təhlükəsizliyini qorumaq üçün "tarladan süfrəyədək" olan bütün qida zəncirində qaydalara əməl etmək vacibdir. Çünki bu zəncirin hər hansı birində qırılma baş verərsə və ya düzgün əməl olunmazsa, bu zaman qidanın tərkibində dəyişikliklər baş verir". Bu sözləri SİA-ya açıqlamasında sağlam qidalanma üzrə mütəxəssis Məhsəti Hüseynova deyib.



Mütəxəssis bildirib ki, satış müəssisəsindən alıb, evə gətiridiyimiz qidanın da qonşuluq prinsipinə, bişirərəkən və servis edərkən belə qaydlara əməl etməliyik ki, qidanın tərkibi pozulmasın: "Əks halda faydalı qida belə bizim orqanizmimizə bir çox zərərlər verə bilər. Bir çox qidalar var ki, onların saxlanma müddəti uzun olur. Bu qidalara paxlalılar və quru qidalar aiddir ki, bunlar gec xarab olmağa meyillidir və nisbətən aşağı risk qrupuna aid olan qidalar sırasındadır.

Quru meyvələri nəmişlik mühiti olmayan yerdə və vakumlu qablarda saxlamaq vacibdir. İsti havalarda isə quru meyvələrin xarab olmasının qarşısını almaq üçün soyuducuda saxlamaq daha məqsədəuyğundur. Yüksək risk qrupuna aid olan süd, ət məsulları və təzə meyvə-tərəvəzlərin hər birinin özünə uyğun şəkildə saxlanılmasına diqqət etmək lazımdır. Çünki bunlar canlı qida olduğundan tez xarab olmağa meyillidir. Qidaları bişirərkən həddindən artıq qaynatmaq və qızartmaq da insan orqanizmində bir çox problemlərə yol açır".

**Səbinə Hüseynli**

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000